International Centre for Migration Policy Development

# AZƏRBAYCANDA MİQRASİYA MƏLUMATLARININ İDARƏ EDİLMƏSİ ÜZRƏ BAZA TƏDQİQATI

2023-cü il

Miqrasiya Siyasətinin İnkişafı üzrə Beynəlxalq Mərkəz (MSİBM)
Avstriya Respublikası,
Vyana şəhəri A-1020,
Rotschildplatz 4
www.icmpd.org

Miqrasiya Siyasətinin İnkişafı üzrə Beynəlxalq Mərkəz
Avstriya Respublikası, Vyana şəhəri
2023-cü il

Miqrasiya Siyasətinin İnkişafı üzrə Beynəlxalq Mərkəzin Azərbaycandakı Nümayəndəliyi
Azərbaycan Respublikası, Bakı şəhəri,
Dünya Biznes Mərkəzi, Səməd Vurğun küç. 43
2023-cü il

Müəlliflər: Ann Herm, Könül Cəfərova, Mişel Pulen

Bütün hüquqlar qorunur. Bu nəşrin heç bir hissəsi müəllif hüquqları sahiblərinin icazəsi olmadan hər hansı formada və ya vasitə ilə, elektron və ya mexaniki, o cümlədən surətçıxarma, yazma və ya istənilən məlumat saxlama və axtarış sistemi ilə çoxaldıla, təkrarlana, yaxud da ötürülə bilməz.

Bu sənəd Avropa İttifaqının maliyyə dəstəyi ilə hazırlanıb. Bu nəşrin məzmunu yalnız MSİBM-in məsuliyyət dairəsinə daxildir və Avropa İttifaqının fikirlərinin mütləq şəkildə əks etdirilməsi kimi qəbul olunmamalıdır.

## Mündəricat


İxtisarlar 2
Giriş 3
1. Dövlət Miqrasiya Xidməti 4
  1.1 Məlumatların toplanması ilə məşğul olan DMX bölmələri 4
  1.2 DMX-nın topladığı məlumatlarda əks olunan məsələlər 5
  1.3 DMX tərəfindən məlumat toplamanın hüquqi əsası 6
  1.4 DMX tərəfindən məlumatların toplanması və mübadiləsi 7
  1.5 DMX-nın idarə etdiyi məlumat bazaları 8
  1.6 DMX tərəfindən statistikanın hazlrlanması 9
  1.7 DMX məlumatlarının keyfiyyətinin idarə edilməsi 10
2. Dövlət Sərhəd Xidməti 11
  2.1 Məlumatların toplanması ilə məşğul olan DSX bölmələri 11
  2.2 DSX-nın topladığı məlumatlarda əks olunan məsələlər və hazırladığı statistika 11
  2.3 DSX məlumatlarının keyfiyyətinin idarə edilməsi və potensialın inkişafı 11
3. Daxili İşlər Nazirliyi 12
  3.1 Beynəlxalq miqrasiya məlumatlarının toplanması ilə məşğul olan DİN bölmələri 12
  3.2 DİN-in topladığı məlumatlarda əks olunan məsələlər 12
  3.3 DİN-in istifadə etdiyi məlumat bazaları və hazırladığı statistika 12
4. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi 13
  4.1 Məlumatların toplanması ilə məşğul olan ƏƏSMN bölmələri 13
  4.2. ƏƏSMN-nin topladığı məlumatlarda əks olunan məsələlər və məlumat mübadiləsi 13
  4.3 ƏƏSMN-nin istifadə etdiyi məlumat bazaları və hazırladığı statistika 13
5. Ədliyyə Nazirliyi 14
6. Diasporla İş üzrə Dövlət Komitəsi 14
7. Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi 15
8. Xarici İşlər Nazirliyi 15
9. İdarələrarası Avtomatlaşdırılmış Məlumat Axtarış Sistemi 16
10. Dövlət Statistika Komitəsi 17
  10.1 Məlumatların toplanması ilə məşğul olan DSK bölmələri 17
  10.2 DSK tərəfindən məlumat toplamanın hüquqi əsası 18
  10.3 DSK tərəfindən statistikanın hazırlanması 18
Nəticə və tövsiyələrin xülasəsi 21

## İxtisarlar

| | |
|---|---|
| Aİ | Avropa İttifaqı |
| ASAN | Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi |
| ASİX | Azərbaycanın Statistik İnformasiya Xidməti |
| BMT | Birləşmiş Millətlər Təşkilatı |
| BMTİP | Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı |
| BMTQAK | Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığı |
| BMTSŞ | Birləşmiş Millətlər Təşkilatının Statistika Şöbəsi |
| BMqT | Beynəlxalq Miqrasiya Təşkilatı |
| DİN | Daxili İşlər Nazirliyi |
| DMX | Dövlət Miqrasiya Xidməti |
| DSX | Dövlət Sərhəd Xidməti |
| DSK | Dövlət Statistika Komitəsi |
| ƏdN | Ədliyyə Nazirliyi |
| ƏƏSMN | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi |
| Frontex | Avropanın Sərhəd və Sahil Mühafizəsi Agentliyi |
| XİN | Xarici İşlər Nazirliyi |
| İAMAS | İdarələrarası Avtomatlaşdırılmış Məlumat Axtarış Sistemi |
| İnA | İnsan alveri |
| MDB | Müstəqil Dövlətlər Birliyi |
| MK | Məcburi köçkün |
| MQP | Miqrasiya üzrə Qlobal Pakt |
| MOBILAZE | “Azərbaycanla Yerdəyişmə üzrə Tərəfdaşlığın həyata keçirilməsinə dəstək” layihəsi (Aİ-nin maliyyə dəstəyi ilə MSİBM tərəfindən həyata keçirilən “MOBILAZE 2” layihəsi 2021-2024-cü illəri əhatə edir) |
| MSİBM | Miqrasiya Siyasətinin İnkişafı üzrə Beynəlxalq Mərkəz |
| VMMS | Vahid Miqrasiya Məlumat Sistemi |

## Giriş

Azərbaycanda miqrasiya məlumatlarının idarə edilməsi üzrə baza tədqiqatının hesabatı Miqrasiya Siyasətinin İnkişafı üzrə Beynəlxalq Mərkəzin (MSİBM) icra etdiyi "Azərbaycanla Yerdəyişmə üzrə Tərəfdaşlığın həyata keçirilməsinə dəstək (MOBILAZE 2)" layihəsi çərçivəsində hazırlanıb. "MOBILAZE 2" layihəsinin əsas məqsədi Azərbaycan Respublikasında fakt əsaslı miqrasiya və sərhəd idarəçiliyi üzrə siyasət gündəliyinin hazırlanması və həyata keçirilməsinə töhfə verməkdir. Layihənin xüsusi məqsədləri çərçivəsində miqrasiya siyasətinin hazırlanması və həyata keçirilməsi üzrə institusional potensialların artırılmasına, miqrasiya məlumatlarının toplanması, təhlili və tətbiqinin institusionallaşdırılmasına, miqrasiya və sərhəd idarəçiliyi potensialının gücləndirilməsi üçün institusional prosedurların təkmilləşdirilməsi və standartlaşdırılmasına, eləcə də miqrasiya siyasətinin gündəliyi və qanunsuz miqrasiya təhlükələri barədə institusional və ictimai məlumatlılığın inkişafına diqqət yetirilir.

Bu hesabatın əsas məqsədi Azərbaycan Respublikasında miqrasiya məlumatlarının toplanması, təhlili və tətbiqi üzrə mövcud prosedur və alətlərə xüsusi diqqət yetirməklə, bu məlumatları idarəetmə sahəsində cari vəziyyət və təcrübə haqqında hərtərəfli məlumat vermək, bununla bağlı nəzərə çarpan konkret boşluq və ehtiyacları müəyyən etmək və təkmilləşdirmə üçün tövsiyələr verməkdir.

Azərbaycan Respublikasında beynəlxalq miqrasiyaya dair məlumatlarının toplanması üzrə institusional çərçivə bir sıra dövlət qurumlarının bu prosesdə iştirakını nəzərdə tutur və onların hər biri konkret miqrasiya məsələsi ilə məşğul olur. Hazırkı analitik icmal Azərbaycanda miqrasiya məlumatların toplanmasında iştirak edən ən vacib dövlət qurumlarını əhatə edir.

Müxtəlif miqrasiya məsələlərinə dair məlumatların toplanması və qeydiyyatı sahəsində hər bir dövlət qurumunun öz vəzifələri olduğu halda, geniş şəkildə istifadə olunan informasiya sistemi - İdarələrarası Avtomatlaşdırılmış Məlumat Axtarış Sistemi (İAMAS) müvafiq qanunvericilik əsasında toplanmış məlumatların müvafiq dövlət qurumları arasında mübadiləsinə şərait yaradır. Eyni zamanda, İAMAS müxtəlif miqrasiya məsələlərinə aid statistikanın hazırlanmasına imkanı verir. Bu, əsasən müvafiq dövlət qurumlarının fəaliyyəti haqqında məlumatları özündə əks etdirən institusional statistikadır. Bəzi statistik məlumatlar milli statistikanın dərc edilməsi üçün hazırlanaraq Dövlət Statistika Komitəsinə (DSK) təqdim olunur.

İcmal, beynəlxalq miqrasiya məlumatlarının toplanması sahəsində əsas dövlət təşkilatı olan Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin fəaliyyətinin təsviri ilə başlayır. Bundan sonra, beynəlxalq miqrasiya məsələləri ilə və birgə istifadə üçün İAMAS-da saxlanılan müvafiq məlumatların toplanması ilə məşğul olan digər əlaqədar nazirliklər və dövlət qurumları haqqında məlumatlar təqdim olunur. Bu icmalda İAMAS-ın istifadəsi barədə təfərrüatlar da təqdim olunur. İcmal, aparılmış qiymətləndirmədən irəli gələn nəticə və tövsiyələrin xülasəsini təqdim etməklə və miqrasiya məlumatlarının hazırlanması üzrə Birləşmiş Millətlər Təşkilatının (BMT) tövsiyələrinə və ən yaxşı Avropa təcrübəsinə istinad etməklə yekunlaşdırılır.

Bu icmal xüsusi anketlər, seçilmiş nazirliklərin və dövlət qurumlarının məsul şəxsləri ilə üzbəüz və onlayn görüşlər və həmin təşkilatların rəsmi internet-saytları vasitəsilə əldə olunmuş informasiyaya əsaslanır.

## 1. Dövlət Miqrasiya Xidməti

Dövlət qurumları arasında Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti (DMX) miqrasiya məlumatlarının idarə edilməsi üzrə aparıcı təşkilatdır. Əcnəbilərin miqrasiyası sahəsində toplanmış məlumatların idarə edilməsi də DMX vəzifələrinə daxildir. Bu məqsədlə DMX Azərbaycan Respublikasında beynəlxalq miqrasiya və əcnəbilər və vətəndaşlığı olmayan şəxslər (bundan sonra - əcnəbilər) haqqında məlumatların toplandığı Vahid Miqrasiya Məlumat Sisteminin (VMMS) fəaliyyətini təmin edir. DMX hökumətə təqdim edilən və sorğu əsasında digər dövlət orqanları ilə paylaşılan statistikanın hazırlanması ilə də məşğul olur.

DMX Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin yaradılması haqqında" 2007-ci il 19 mart tarixli, 560 nömrəli Fərmanına əsasən yaradılıb, Prezidentin 2009-cu il 8 aprel tarixli, 76 nömrəli Fərmanı ilə isə hüquq-mühafizə orqanı statusunu alıb. Xidmət miqrasiya sahəsində dövlət siyasətini, miqrasiya proseslərinin idarə edilməsi və tənzimlənməsində Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş səlahiyyətləri həyata keçirir.

Bu kontekstdə DMX aşağıdakı vəzifələri yerinə yetirir:

- Miqrasiya sahəsində dövlət siyasətinin əsas istiqamətlərini işləyib hazırlamaq və aidiyyəti dövlət orqanlarının iştirakı ilə onların həyata keçirilməsini təmin etmək;
- Əcnəbiləri olduğu yer üzrə qeydiyyata almaq, Azərbaycan Respublikasında müvəqqəti olma müddətinin uzadılması məsələlərini həll etmək;
- Əcnəbilərə Azərbaycan Respublikasında müvəqqəti və ya daimi yaşamaq üçün icazə vermək;
- Əcnəbilərə haqqı ödənilən əmək fəaliyyətini həyata keçirmək üçün iş icazələrini vermək;
- Azərbaycan Respublikasının vətəndaşlığı, o cümlədən şəxsin Azərbaycan Respublikasının vətəndaşlığını itirməsi, Azərbaycan Respublikasının vətəndaşlığına qəbulu və mənsubiyyətinin müəyyənləşdirilməsi ilə bağlı məsələlərin həllində iştirak etmək;
- Qaçqın statusunu müəyyən etmək və bu statusu təsdiq edən sənədi vermək;
- Qanunsuz miqrasiyanın qarşısının alınması ilə bağlı müvafiq tədbirlər həyata keçirmək;
- Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi ilə müəyyən edilmiş qaydada əcnəbilərin qanunsuz miqrantların saxlanılması mərkəzlərində yerləşdirilməsini və saxlanılmasını təmin etmək;
- Xarici ölkələrə müvəqqəti və ya daimi köçən Azərbaycan vətəndaşlarının qeydiyyatını aparmaq, onların hüquq və mənafelərinin təmin edilməsi üzrə aidiyyəti dövlət orqanları ilə birlikdə xarici dövlətlərin müvafiq orqanları ilə əməkdaşlıq etmək, xaricdə yaşayan Azərbaycan vətəndaşlarının dəstəklənməsinə yönəlmiş dövlət siyasətinin həyata keçirilməsində iştirak etmək;
- Miqrasiya qanunvericiliyi ilə bağlı maarifləndirmə tədbirlərini həyata keçirmək;
- Fəaliyyət istiqamətlərinə uyğun olaraq "Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti haqqında" Əsasnamə ilə və qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

### 1.1 Məlumatların toplanması ilə məşğul olan DMX bölmələri

- Miqrasiya proseslərinin təhlili və informasiya təminatı baş idarəsi;
- Miqrasiya proseslərini tənzimləmə baş idarəsi;

- Regional miqrasiya idarələri;
- Vətəndaşlıq məsələləri baş idarəsi;
- Readmissiya məsələləri idarəsi;
- Qaçqın statusunun müəyyənləşdirilməsi idarəsi;
- Miqrasiyaya nəzarəti baş idarəsi;
- Miqrasiya siyasəti və hüquqi təminat baş idarəsi.

## 1.2 DMX-nın topladığı məlumatlarda əks olunan məsələlər

Aşağıda göstərildiyi kimi, DMX beynəlxalq miqrasiya ilə bağlı əksər məsələlərə dair məlumatların toplanmasına məsuliyyət daşıyır:

- Azərbaycan Respublikasında müvəqqəti olan, o cümlədən (Miqrasiya Məcəlləsinin 21-ci maddəsinə uyğun olaraq) 15 gündən artıq müvəqqəti olan xarici vətəndaşların olduğu yer üzrə qeydiyyatına və müvəqqəti olma müddətinin uzadılmasına;
- Ölkədə müvəqqəti və ya daimi yaşamaq üçün icazələrin verilməsinə və müddətinin uzadılmasına;
- İş icazələrinin verilməsinə və müddətinin uzadılmasına;
- Azərbaycan vətəndaşlığının verilməsinə, bərpasına, müəyyən edilməsinə və itirilməsinə, başqa ölkənin vətəndaşlığını qəbul etmiş Azərbaycan vətəndaşlarının verdiyi məlumatlar əsasında ikili vətəndaşlığın qeydə alınmasına;
- Qaçqın statusunun və müvafiq sənədin verilməsinə;
- Əcnəbilərin müvəqqəti saxlama mərkəzlərində yerləşdirilməsinə;
- Təyinat ölkəsində qeyri-qanuni yaşaması müəyyən edilmiş vətəndaşların xaricə readmissiyasına;
- Əcnəbilər tərəfindən qanunsuz miqrasiya və qanun pozuntuları hallarına. Bu məlumatlara Azərbaycan Respublikasının hüdudlarından çıxarılmış qeydiyyatda olan əcnəbilərə; əcnəbilərin müəyyən müddətə Azərbaycana gəlməsinə məhdudiyyətin qoyulmasına; əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən miqrasiya sahəsində qanunvericiliyin tələblərinin pozulması və ölkədə qanuni yaşamaq üçün əsasları olan qanunsuz miqrantların yaşamasının leqallaşdırılması hallarına aid məsələlər daxildir;
- Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığının himayəsi altında olan əcnəbilərlə əlaqəli fəaliyyətə.

Xaricdə müvəqqəti yaşayan Azərbaycan vətəndaşlarının qeydiyyatı (yuxarıda sadalanmış) DMX vəzifələrinə daxil olsa da, hal-hazırda Xidmət bu qrup haqqında ətraflı məlumatların toplanmasını həyata keçirmir. Bununla belə, DMX daimi yaşayış yeri üzrə qeydiyyatdan çıxmaq üçün müraciət edən Azərbaycan vətəndaşları haqqında məlumatların toplanması ilə məşğul olur.

DMX, əcnəbilərin təqdim etdiyi müxtəlif müraciətlərə baxarkən (müvafiq müraciət formaları bu təşkilatın və ASAN xidmətin[1] rəsmi internetsaytlarında mövcuddur) yuxarıda qeyd olunmuş məlumatları toplayır. Bununla bağlı, növləri aşağıda sadalanan müraciətlər DMX tərəfindən işlənilir:

[1] "ASAN xidmət" mərkəzləri dövlət orqanları tərəfindən göstərilən xidmətlərin vahid və əlaqələndirilmiş şəkildə həyata keçirilməsini təmin edən qurumlardır. Bu mərkəzlər Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 13 iyul tarixli, 685

- Azərbaycanda olduğu yer üzrə qeydiyyata alınma;
- Azərbaycanda müvəqqəti olma müddətinin uzadılması;
- Azərbaycanda müvəqqəti yaşamaq üçün icazənin verilməsi;
- Azərbaycanda daimi yaşamaq üçün icazənin verilməsi;
- Haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaq üçün iş icazəsinin verilməsi;
- Azərbaycan Respublikasının miqrasiya qanunvericiliyini pozmuş əcnəbilərin Azərbaycandan getməsinin və Azərbaycana gəlməsinin müvəqqəti məhdudlaşdırılması barədə məlumatın verilməsi;
- Azərbaycan vətəndaşlığının əldə edilməsi;
- Azərbaycan vətəndaşlığının bərpa edilməsi;
- Azərbaycan vətəndaşlığından çıxma;
- Azərbaycan vətəndaşlığına mənsubiyyətin müəyyənləşdirilməsi;
- Başqa dövlətin vətəndaşlığını qəbul etmiş Azərbaycan vətəndaşı tərəfindən bu barədə məlumatın təqdim edilməsi;
- Başqa ölkədə yaşayış yeri seçmiş Azərbaycan vətəndaşının yaşayış yeri üzrə qeydiyyatdan çıxarılması;
- Readmissiya müraciətləri;
- Ölkəyə müşayiətsiz gələn və ya gəldikdən sonra müşayiətsiz qalan miqrant uşaqlar.

Müraciətlərin onlayn istifadəsinə dair təlimatlar da DMX tərəfindən Dövlət Xidmətləri Portalında təqdim olunur.[2]

DMX statistikaya dair təlimatların və təriflərin hazırlanmasını elektron xidmətlərdən istifadə istiqamətində növbəti addım hesab edir. Yuxarıda qeyd olunan müraciət formalarından bütün məlumatlar DMX-nın idarə etdiyi və (yalnız baxılması məqsədilə çıxışı olan) bir sıra digər dövlət qurumları tərəfindən məsləhətləşmələr üçün istifadə edilən əsas məlumat bazası - VMMS-ə birbaşa daxil edilir. VMMS müraciətə baxılma prosesi haqqında məlumatı və miqrasiyaya aid statistik məlumat toplusunu özündə ehtiva edir. VMMS haqqında ətraflı məlumat bu hesabatın bir neçə bölməsində verilir.

## 1.3 DMX tərəfindən məlumat toplamanın hüquqi əsası

Azərbaycanın miqrasiya qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, Miqrasiya Məcəlləsindən və müvafiq qanunlarından, Azərbaycanın tərəfdar çıxdığı beynəlxalq konvensiyalardan, habelə bu sənədlərə uyğun qəbul edilmiş digər hüquqi-normativ aktlardan ibarətdir.

Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi[3] Azərbaycanda beynəlxalq miqrasiya məsələlərini tənzimləyən əsas hüquqi sənəddir.

---

nömrəli Fərmanı ilə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində yaradılıb.

[2] Dövlət Xidmətləri Portalının ana səhifəsi, https://www.dxr.az/xidmetler/struktur/3590A0AF-9A7F-49FD-94B9-07C4667F0A80/.

[3] Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi, http://e-qanun.az/framework/46959/.

Aşağıda verilmiş bir sıra digər qanunlar miqrasiya məsələləri ilə bağlı müxtəlif prosedurları tənzimləyir:

- "Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti haqqında" Əsasnamə;[4]
- "Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin Vahid Miqrasiya Məlumat Sistemi haqqında" Əsasnamə;[5]
- "Qaçqınların və məcburi köçkünlərin statusu haqqında" Azərbaycan Respublikasının Qanunu;[6]
- "Qaçqın" statusu verilməsi haqqında vəsatətə baxılması qaydası;[7]
- "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Qanun;[8]
- "Azərbaycan Respublikasının vətəndaşlığı məsələlərinə baxılması və onların həlli qaydaları haqqında" Əsasnamə;[9]
- Şəxsin Azərbaycan Respublikasının vətəndaşlığına mənsubiyyətinin müəyyənləşdirilməsi Qaydası.[10]

Bununla yanaşı, miqrasiya sahəsində dövlət qurumları arasında mübadilə edilən məlumat növləri və subyektləri ilə, o cümlədən DMX-nın müvafiq dövlət orqanlarına təqdim etdiyi məlumatlarla bağlı təfərrüatlar da DMX-nın vəzifələrini və fəaliyyətini tənzimləyən qanunvericilikdə öz əksini tapıb.

## 1.4 DMX tərəfindən məlumatların toplanması və mübadiləsi

DMX tərəfindən şəxslərin müraciətlərinə və digər sənədlərə baxılarkən toplanan bütün məlumatlar VMMS-ə daxil edilir. Bu sistem Azərbaycan Respublikası ərazisində yaşayan əcnəbilərin fərdi uçotunu aparmaq, miqrasiya proseslərinin idarə edilməsində iştirak edən dövlət orqanlarını zəruri informasiya ilə təmin etmək məqsədilə yaradılıb. VMMS bu sahədə elektron xidmətlər göstərməklə yanaşı sənədlərin elektron qaydada saxlanmasına, fərdi uçotla bağlı axtarış, yoxlama və təhlil işlərinin aparılmasına şərait yaradır. Sistem dövlətin bütün informasiya resurslarını əhatə edən İAMAS[11] ilə əlaqəlidir. Əcnəbilərin iştirak etdiyi bütün prosedurlardan əldə olunmuş məlumatlar VMMS-ə daxil edilidyi halda, əsas sistem olan İAMAS, VMMS-ə aid bölmənin sinxron şəkildə yenilənən surətini özündə əks etdirir.

DMX toplanmış məlumatları dövlət orqanları ilə onların səlahiyyətləri çərçivəsində fəaliyyəti üçün zəruri dərəcədə paylaşır. İlk növbədə, bu paylaşma hər bir müvafiq dövlət qurumunun İAMAS vasitəsilə təqdim edilən sorğularla bağlı DMX-nın topladığı məlumatlara çıxış imkanına malik olması deməkdir. VMMS məlumatları İAMAS-a inteqrasiya olunduğundan, müvafiq səlahiyyətli dövlət qurumlarına öz

[4] Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin vahid miqrasiya məlumat sistemi haqqında Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı, http://www.e-qanun.az/framework/12885/.
[5] Yuxarıda qeyd olunan mənbə, http://www.e-qanun.az/framework/19674/.
[6] "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında" Azərbaycan Respublikasının Qanunu, http://www.e-qanun.az/framework/4757/.
[7] "Qaçqın" statusu verilməsi haqqında vəsatətə baxılması Qaydasının təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı, http://www.e-qanun.az/framework/380/.
[8] "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Qanun, http://www.e-qanun.az/framework/3187/.
[9] Azərbaycan Respublikasının vətəndaşlığı məsələlərinə baxılması və onların həlli qaydaları haqqında Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı, http://www.e-qanun.az/framework/5317/.
[10] "Şəxsin Azərbaycan Respublikasının vətəndaşlığına mənsubiyyətinin müəyyənləşdirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı, http://www.e-qanun.az/framework/29815/.
[11] Əlavə məlumat üçün "İdarələrarası Avtomatlaşdırılmış Məlumat Axtarış Sistemi" adlı fəsil 9-a baxın.

vəzifələrini qanunvericiliyə uyğun yerinə yetirmək üçün əlçatan~~dır~~ edir.~~, m~~Məsələn, əcnəbilər sərhədi keçərkən və onlara viza verilərkən müvafiq pasport və viza məlumatları sistemdə qeyd olunur. Sərhəd nəzarəti məlumatları da İAMAS-ın bir hissəsidir. Əcnəbinin ölkədə yaşamaq icazəsi vardırsa, bu icazənin məlumatları da bilavasitə sərhəddə qeydiyyata alınır.

Vizaya və ölkədə yaşamaq icazəsinə aid məlumatlar, habelə əcnəbilərin pasport məlumatları VMMS-ə daxil edilir və bu sistemin digər hissələri ilə əlaqələndirilir. İş icazəsinin verilməsi məqsədilə VMMS-ə daxil edilmiş müraciət müvafiq məlumatların yoxlanması sistemi vasitəsilə bütün əlaqədar qurumlar üçün əlçatan olur. Əcnəbi ölkədə yaşamaq icazəsinin müddətini uzatmağı unutduqda, bu barədə məlumat müvafiq orqanlara, o cümlədən Dövlət Sərhəd Xidmətinə (DSX) göndərilir. Beləliklə, ölkədə olduğu zaman müddəti bitmiş yaşamaq icazəsinə malik olan əcnəbilərin yenilənmiş siyahısı praktiki olaraq real vaxt rejimində mövcuddur.

DMX-nın məlumat mübadiləsi apardığı dövlət qurumları və paylaşdığı miqrasiya məlumatları bunlardır:

- Daxili İşlər Nazirliyi (DİN) – Azərbaycan vətəndaşlarının şəxsiyyət vəsiqəsi və pasport məlumatları;
- Xarici İşlər Nazirliyi (XİN) – viza məlumatları;
- ASAN – birbaşa məlumat mübadiləsi aparılmır;
- DSX – sərhədkeçmə məlumatları;
- Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi – birbaşa məlumat mübadiləsi aparılmır;
- DSK – mövcud prosedurlara uyğun miqrasiya statistikası;
- Ədliyyə Nazirliyi (ƏdN) – ailə vəziyyəti (nikah, boşanma), doğum və ölüm hallarının qeydiyyatı haqqında məlumatlar;
- Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (ƏƏSMN) – əmək müqavilələri haqqında məlumatlar;
- Dövlət Vergi Xidməti – Azərbaycanda vergi ödəyicisi kimi qeydiyyata alınmış əcnəbilər haqqında məlumatlar.

## 1.5 DMX-nın idarə etdiyi məlumat bazaları

VMMS Azərbaycan Respublikasında olan və ya (daimi və yaxud müvəqqəti) yaşayan əcnəbilər, DMX vasitəsilə qaçqın statusu almış şəxslər, vətəndaşlığın əldə edilməsi, bərpası və ləğvi, Azərbaycan Respublikası ərazisində qeyri-qanuni olan şəxslər və xaricdə yaşayan Azərbaycan vətəndaşları haqqında məlumatları toplayan və saxlayan mərkəzləşdirilmiş informasiya sistemidir. Sistemin əsas məqsədi miqrasiya proseslərinin idarə olunmasında iştirak edən dövlət orqanlarının fəaliyyətləri üçün zəruri informasiya təminatından, o cümlədən Azərbaycanda yaşayan və ya yaşamaq istəyən vətəndaşlara və əcnəbilərə elektron xidmətlərin göstərilməsindən ibarətdir.

VMMS-in fəaliyyətinin təmin olunması və lazımi informasiya resurslarının formalaşdırılması məqsədilə DMX bu sistemin mərkəzi serverini idarə edir və ona xidmət göstərir və müvafiq məlumatların sistemdə toplanması və qeydiyyata alınmasına şərait yaradır. VMMS "Giriş-çıxış və qeydiyyat" İdarələrarası Avtomatlaşdırılmış Məlumat-axtarış Sistemi, Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestri, "Lisenziyalar və icazələr" portalı və "Elektron icra" informasiya sistemi ilə inteqrasiya olunub. Bu

məlumat bazaları həm fərdi qeydiyyat, həm də sənədlərin qeydiyyatı şəklində təşkil olunub. Burada hər bir şəxsin miqrasiya və sənəd tarixçəsi izlənilə bilər.

DMX məlumat bazasına daxil edilən məlumatların tamamlığını və düzgünlüyünü mütəmadi olaraq yoxlayır. Lakin bu iş üçün xüsusi protokol sənədi hazırlanmayıb.

VMMS DMX-nın müvafiq struktur bölmələri üçün onların səlahiyyətlərinə uyğun olaraq fərdi qeydlər səviyyəsində əlçatandır. VMMS əsasnaməsinə görə, digər nazirliklər və dövlət qurumlarının fərdi qeydlərə çıxışı müvafiq sorğular əsasında birbaşa bu sistemdə və ya İAMAS vasitəsilə təmin edilir. Fərdi qeydlərə çıxış icazəsi yalnız əlaqədar təşkilatın və onun struktur bölmələrinin fəaliyyətinə uyğun verilir. Məlumatların üçüncü şəxslərə açıqlanması yalnız "Fərdi məlumatlar haqqında" Qanuna[12] uyğun həyata keçirilir. VMMS-ə çıxışı olan digər dövlət qurumları, məsələn, ƏƏSMN yalnız fiziki şəxslərin müraciətlərindən toplanmış məlumatlar üzrə məsləhətləşmələr apara və rəy verə bilər. Digər qurumlar VMMS-dəki qeydləri dəyişmək hüququna malik deyil, lakin yeni məlumatların və ya düzəlişlərin daxil edilməsini təklif edə bilər. İstənilən zəruri düzəliş DMX tərəfindən daxil edilir. Digər dövlət qurumları tərəfindən idarə edilən İAMAS bölmələrinə daxil olmaq üçün eyni prosedur DMX-ya da şamil olunur.

## 1.6 DMX tərəfindən statistikanın hazırlanması

Ölkəyə gələrkən sərhəd-buraxılış məntəqəsində qeydiyyata alındığı andan əcnəbilər haqqında bütün informasiya VMMS-də mövcud olduğundan zəngin, çevik və vaxta uyğun statistikanın hazırlanması üçün əlçatandır. Ölkəyə viza əsasında gəlmə ilə bağlı giriş/immiqrasiya məqsədli məlumatlar da burada mövcuddur.

VMMS-dəki informasiya əsasında hazırlanan statistikaya əlavə olaraq, digər qurumlar tərəfindən idarə olunan və İAMAS vasitəsilə DMX üçün əlçatan olan məlumat bazalarından da fərdi qeydləri əlaqələndirməklə statistik məlumatlar hazırlamaq olar. Beləliklə, məsələn, Azərbaycanda əmək müqaviləsi olan, lakin iş icazəsi olmayan əcnəbilərin sayına dair əlavə statistika hazırlana bilər.

Ümumiləşdirilmiş formada (müvafiq cədvəllər formasında) statistik məlumatlar portal vasitəsilə əlçatandır. Bundan əlavə, DMX-nın Analitik Təhlil və Statistika Bölməsi müxtəlif məsələlər üzrə ümumiləşdirilmiş aylıq, rüblük və illik məlumatlar hazırlayaraq DMX-nın internet-saytında dərc edir ki,[13] bu da DMX-dan kənar istifadəçilər (digər nazirliklər və dövlət qurumları, tədqiqatçılar, konsulluq şöbələri və s.) üçün əlçatan olur. Bununla belə, dərc edilən bu məlumatlar əsasən gün və ay ərzində işlənilən müxtəlif növ müraciətlərə aid inzibati statistika formasındadır.

VMMS qeydləri əsasında hazırlanan statistik məlumat toplusu milli statistika formasında dərc edilməsi üçün DSK-ya göndərilir.[14] DMX-nın Analitik Təhlil və Statistika Bölməsi miqrasiya məlumatlarını Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2015-ci il 28 iyul tarixli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında olan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər haqqında" 1 nömrəli formaya uyğun olaraq, hesabatvermə proqramı çərçivəsində DSK-ya təqdim edir.

---

[12] "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının Qanunu, http://www.e-qanun.az/framework/19675/.
[13] DMX, Statistika, Mətbuat Mərkəzi, https://migration.gov.az/en/statistics#.
[14] DSK saytının ana səhifəsi: https://www.azstat.org/portal/.

Əlavə statistik məlumatlar DSK-ya xüsusi sorğu əsasında təqdim olunur, məsələn, konkret tendensiyalarla bağlı və ya spesifik siyasət məqsədləri üçün. Miqrasiya tendensiyaları, immiqrasiya, emiqrasiya, geri qayıdış miqrasiyası, daxili miqrasiya, eləcə də miqrasiyanın insan inkişafına, iqtisadi inkişafa, səhiyyəyə və əmək bazarına təsiri haqqında statistika Azərbaycanda miqrasiya siyasətinin inkişafı üçün xüsusi maraq doğurur. İnformasiyanın toplandığı və VMMS-də mövcud olan digər müvafiq məsələlərə aid konkret statistika sorğu əsasında hazırlanıb, lazım olduqda, İAMAS-a inteqrasiya olunaraq nəticədə müvafiq dövlət qurumları üçün əlçatan ola bilər. Bu cür məlumatlar əsasında Azərbaycanda miqrasiyanın müxtəlif aspektlərini əhatə edən miqrasiya profilləri hazırlanır.

Yuxarıda qeyd olunanlarla yanaşı, DMX Təhlükəsiz, nizamlı və qanuni miqrasiya üzrə Qlobal Pakta (Miqrasiya üzrə Qlobal Pakt) dair 2020 və 2022-ci illər üçün hesabatların hazırlanmasında da iştirak edib.[15] 2020-ci ildə Azərbaycan Miqrasiya üzrə Qlobal Paktın 2019-2020-ci illərdə icrasına dair könüllü hesabat təqdim edib və bu hesabat 2022-ci ilin aprel ayında yenilənib.[16] Eyni zamanda, Dayanıqlı İnkişaf Məqsədlərinin müvafiq bəndlərinin həyata keçirilməsi üçün görülən işlər haqqında ölkə hesabatına cavabdeh olan İqtisadiyyat Nazirliyinə də informasiya təqdim edilib.[17]

### 1.7 DMX məlumatlarının keyfiyyətinin idarə edilməsi

Toplanmış məlumatların tamlığı və düzgünlüyü mütəmadi olaraq qiymətləndirilir və nəzarətdə saxlanılır. Bu kontekstdə, potensialların artırılması üçün həyata keçirilmiş bir neçə layihə DMX-da məlumatların idarə edilməsi işini təkmilləşdirmək məqsədi daşıyırdı. Həmin layihələrə aid bəzi misallar aşağıda verilir.

2014-2018-ci illər ərzində Beynəlxalq Miqrasiya Təşkilatı (BMqT) ilə birgə həyata keçirilmiş “Azərbaycanda miqrasiya və sərhəd idarəçiliyi üzrə potensialların gücləndirilməsi” layihəsi çərçivəsində miqrasiya statistikasının hazırlanması və yayılması üçün VMMS-dən istifadənin təkmilləşdirilməsi istiqamətində tədbirlər DSK ilə sıx əməkdaşlıq şəraitində yerinə yetirilib.

MSİBM ilə birgə həyata keçirilən “MOBILAZE” layihəsi[18] çərçivəsində icra olunmuş tədbirlər miqrasiya məlumatlarının idarə edilməsi üzrə bacarıqların təkmilləşdirilməsinə, DMX əməkdaşlarının analitik potensialının artırılmasına və Azərbaycan cəmiyyətinin ölkədəki miqrasiya prosesləri barədə məlumatlılığının artırılmasına töhfə verib.

2020-ci ildən BMqT ilə birgə həyata keçirilən “Azərbaycanda readmissiya idarəçiliyinin gücləndirilməsi” layihəsi çərçivəsində readmissiya statistikasının hazırlanması üzrə potensialın artırılması nəzərdə tutulur. Təhlükəsiz, nizamlı və qanuni miqrasiya üzrə Qlobal Paktın Azərbaycan Respublikası Hökuməti

[15] Azərbaycan Hökuməti (2020) “Təhlükəsiz, nizamlı və qanuni miqrasiya üzrə Qlobal Paktın Azərbaycan Respublikası Hökuməti tərəfindən icrasına dair Milli Könüllü İcmal Hesabatı”, 2022-ci il aprel, https://www.un.org/sites/un2.un.org/files/imrf-azerbaijan.pdf.
[16] Yuxarıda qeyd olunan mənbə. https://migrationnetwork.un.org/sites/g/files/tmzbdl416/files/docs/azerbaijan_gcm_impl-n_in_report.pdf/.
[17] DSK “Dayanıqlı İnkişaf Məqsədləri göstəriciləri üzrə statistik məlumatlar”, tarixsiz, http://sdg.azstat.org:8484/.
[18] İlk “MOBILAZE” Layihəsi 2015-2019-cu illərdə həyata keçirilib, sonrakı “MOBILAZE 2” layihəsinin icrası isə 2021-ci ilin iyun ayında başlanıb və 36 ay davam edəcək.

tərəfindən icrasına dair 2022-ci il aprel tarixli Milli Könüllü İcmal Hesabatında bildirildiyi kimi, bu layihə hələ də davam edir (baxın: Haşiyə 15).

## 2. Dövlət Sərhəd Xidməti

### 2.1 Məlumatların toplanması ilə məşğul olan DSX bölmələri

Sərhəd Nəzarəti Komandanlığı

### 2.2 DSX-nın topladığı məlumatlarda əks olunan məsələlər və hazırladığı statistika

DSX Azərbaycan Respublikasının dövlət sərhədindən keçən şəxslər və nəqliyyat vasitələri haqqında məlumatların toplanmasını həyata keçirir. Şəxslərin və nəqliyyat vasitələrinin qeydiyyatı İAMAS-ın "Giriş-çıxış və qeydiyyat" altsistemi vasitəsilə həyata keçirilir. Məlumatlara həm ölkə vətəndaşları, həm də əcnəbilər tərəfindən sərhədkeçmələr daxildir. Toplanmış məlumatlar şəxsin pasportunda olan informasiyaya əsaslanır.

Sərhəd-buraxılış məntəqəsindən keçən şəxslərlə bağlı aşağıdakı fərdi məlumatlar və sənədlər aid informasiya İAMAS-da əks olunur:

- Sərhədkeçmə tarixi;
- İstiqamət (giriş və ya çıxış);
- Doğum tarixi;
- Cins;
- Vətəndaşlıq;
- Pasport nömrəsi;
- Təyinat və ya yola düşmə yeri;
- Ad, soyad;
- Ata/ana adı;
- (Azərbaycan vətəndaşları üçün və ikitərəfli beynəlxalq müqavilələr əsasında) milli fərdi identifikasiya;
- Sərhəd-buraxılış məntəqəsində toplanan digər informasiya, məsələn, təhsil, peşə, səyahətin səbəbi haqqında məlumatlar.

DSX-nın topladığı müvafiq məlumatlar bütün digər dövlət qurumları üçün onların səlahiyyətləri çərçivəsində İAMAS vasitəsilə əlçatandır. Sərhəd-buraxılış məntəqələrindən giriş-çıxışa aid statistika mütəmadi hazırlanaraq İAMAS vasitəsilə təqdim olunur.

### 2.3 DSX məlumatlarının keyfiyyətinin idarə edilməsi və potensialın inkişafı

Son 15 il ərzində Avropa İttifaqı (Aİ), BMqT, Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı, Avropa Sərhəd və Sahil Mühafizəsi Agentliyi və MSİBM-in dəstəyilə DSX əməkdaşları inteqrasiya olunmuş sərhəd idarəçiliyi və miqrasiya sahəsində həyata keçirilən 9 layihədə iştirak edib; bu layihələrdən biri hələ də davam edir. Uğurla yerinə yetirilmiş layihələr ikitərəfli və çoxtərəfli əməkdaşlığın inkişafına, o cümlədən miqrasiya və sərhəd idarəçiliyi sisteminin təkmilləşdirilməsinə və potensialının artırılmasına,

Aİ dövlətlərinin qabaqcıl təcrübəsinin öyrənilməsinə və beynəlxalq əməkdaşlığın gücləndirilməsinə müsbət töhfə verib.

## 3. Daxili İşlər Nazirliyi

### 3.1 Beynəlxalq miqrasiya məlumatlarının toplanması ilə məşğul olan DİN bölmələri

- Baş Pasport, Qeydiyyat və Miqrasiya İdarəsinin Təşkilati və analitik iş şöbəsi;
- İnsan Alverinə Qarşı Mübarizə Baş İdarəsi (İnsan alveri hallarına dair ümumi statistika, lakin başlanılmış cinayət işləri, müdafiə ilə təmin olunmuş və ya sığınacaqlara yerləşdirilmiş qurbanlar haqqında təfərrüatlı məlumatlar yoxdur).[19]

### 3.2 DİN-in topladığı məlumatlarda əks olunan məsələlər

DİN həm Azərbaycan vətəndaşlarının, həm də Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslərin bu ölkədə olduğu və ya yaşadığı yer üzrə qeydiyyata alınmasına cavabdehdir. Azərbaycan vətəndaşlarına şəxsiyyət vəsiqələrinin və pasportların verilməsinə də bu nazirlik məsuliyyət daşıyır. DİN tərəfindən məlumat toplama prosedurları müvafiq qanunvericiliklə müəyyən edilir. Toplanmış məlumatlar İAMAS-a daxil edilir.

### 3.3 DİN-in istifadə etdiyi məlumat bazaları və hazırladığı statistika

Heç bir məlumat bazası DİN tərəfindən fərdi qaydada idarə olunmur. Digər dövlət qurumları ilə olduğu kimi, DİN-in səlahiyyətləri çərçivəsində toplanmış məlumatlar İAMAS-ın müvafiq altbölmələrində yer alır. Müxtəlif DİN qurumları fərdlər haqqında məlumatlar toplayır və bu məlumatları əlaqələndirməklə İAMAS-a daxil edilmiş informasiya toplularında saxlanılan fərdi məlumatlardan istifadə edir. Həmin məlumatlar şəxsiyyət vəsiqələri və pasportların verilməsi üçün hüquqi əsasları müəyyən etmək, lazım olduqda, yaşayış ünvanlarını yoxlamaq üçün istifadə olunur.

DİN-in İAMAS-dan istifadə etdiyi məlumatlar həm ölkədə, həm də xaricdə yaşayan Azərbaycan vətəndaşlarına və Azərbaycanda daimi yaşayan vətəndaşlığı olmayan şəxslərə aiddir. Xaricdə yaşayan Azərbaycan vətəndaşlarına gəldikdə, İAMAS-a onların dövləti tərk etməzdən əvvəl Azərbaycanda yaşaması və hazırda xaricdəki daimi yaşayış yeri haqqında məlumatlar daxildir. İAMAS-ın necə idarə edilməsi və bu sistemdən məlumatların nə cür istifadə olunması məsələləri hesabatın "İdarələrarası Avtomatlaşdırılmış Məluma Axtarış Sistemi" adlı fəsildə ətraflı təsvir olunur.

[19] DİN "Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizə sahəsində (2005-2021-ci illər üzrə) qeydə alınmış cinayətlərin statistikası", tarixsiz, statistik məlumatlar, https://www.insanalveri.gov.az/?/en/menu/59/.

# 4. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi

## 4.1 Məlumatların toplanması ilə məşğul olan ƏƏSMN bölmələri

Məşğulluq siyasəti və demoqrafik inkişaf məsələləri şöbəsi

## 4.2. ƏƏSMN-nin topladığı məlumatlarda əks olunan məsələlər və məlumat mübadiləsi

ƏƏSMN məlumatların birbaşa şəxslərdən toplanması ilə məşğul olmur, lakin əcnəbilər haqqında zəruri informasiyanı İAMAS-ın "Miqrasiya" altsistemi vasitəsilə DMX-dən əldə edir. Nazirlik tərəfindən öz vəzifələrini yerinə yetirmək üçün əlçatan olan bu informasiya əcnəbilərə dair bu kimi dəyişənlər toplusunu özündə əks etdirir:

- Ad;
- Soyad;
- Pasport nömrəsi;
- Vətəndaşlıq;
- Doğum tarixi;
- İxtisas sahəsi;
- İşəgötürənin adı;
- İqtisadi fəaliyyət sahəsi;
- Vəzifə;
- Təhsil səviyyəsi.

Nazirliyin (məlumat bazasına nəzarət edən qurumunun yalnız) müvafiq səlahiyyətli şəxslərinə bu sistemə çıxış icazəsi verilir. ƏƏSMN-in müvafiq struktur bölmələrini çıxmaq şərtilə, digər dövlət qurumlarından heç biri düzəlişlər etmək üçün tələb olunan buraxılış dərəcəsinə malik deyil. Fiziki şəxslər sistemə elektron imza kartı ilə daxil olaraq öz fərdi məlumatlarını əldə edə bilərlər.

## 4.3 ƏƏSMN-nin istifadə etdiyi məlumat bazaları və hazırladığı statistika

ƏƏSMN tərəfindən əcnəbilərə iş icazələrinin verilməsi üçün istifadə olunan məlumatlar İAMAS-ın "Miqrasiya" altsistemi vasitəsilə VMMS-dən təqdim olunur. "Əcnəbilər üçün iş icazələri barədə rəylərin (qərarların) statistikası" adlı mərkəzləşdirilmiş məlumat bazasını özündə əks etdirən ƏƏSMN-nin "Təhlil" altsistemi, VMMS-in də altsistemidir. Beləliklə, ƏƏSMN öz səlahiyyətləri çərçivəsində həm İAMAS, həm də VMMS məlumatlarına çıxış imkanına malikdir.

Məlumat bazasında mövcud olan informasiyaya əsasən, ƏƏSMN xaricdən gələn hər bir işçinin məşğulluq tarixçəsi, o cümlədən onun iqtisadi fəaliyyət sahəsi (sahələri), iş icazələrinin verilməsi barədə qərar və s. haqqında məlumatları İAMAS-a daxil edir ki, bundan da müvafiq statistik məlumatlar hazırlanır. Ümumiyyətlə, ƏƏSMN-də statistika daxili istifadə üçün hazırlanır. Bununla belə, statistik məlumatlar xüsusi tədqiqat məqsədləri üçün sorğu əsasında da hazırlana bilər. İş icazəsi barədə müraciətlərin, əmək müqavilələrinin sayına və s. dair statistik məlumatlar ƏƏSMN üçün xüsusi maraq doğurur. Belə ki, əcnəbilərin məşğulluq tarixçəsinin yalnız fərdi qeydlər səviyyəsində izlənilməsi mümkündür.

Bu sahədə statistikanın təkmilləşdirilməsi üçün ƏƏSMN tərəfindən mütəmadi olaraq təhlillər, o cümlədən məlumatların keyfiyyəti, dəqiqliyi və tamamlığı üzrə yoxlamalar aparılır və lazım olduqda, müvafiq tövsiyələr hazırlanır.

ƏƏSMN inteqrasiya olunmuş İAMAS vasitəsilə əcnəbi işçilər haqqında toplanan informasiyadan istifadə potensialını artırmaq üçün bir sıra müxtəlif layihələr, təlimlər və seminarlarda iştirak edib. Xarici işçi qüvvəsi haqqında məlumatların istifadəsini və təhlilini təkmilləşdirmək üçün ƏƏSMN-in toplanmış informasiyanın təhlili üzrə potensialını daha da inkişaf etdirmək lazımdır.

## 5. Ədliyyə Nazirliyi

ƏN yanında Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestri Xidməti Ədliyyə nazirinin 07.06.2007-ci il tarixli, 28-T nömrəli əmri ilə təsdiq edilmiş Əsasnaməyə uyğun fəaliyyət göstərir. Bu xidmətin əsas fəaliyyət istiqamətlərindən biri Azərbaycan Respublikası əhalisinin dövlət reyestrini aparmaqdır.

Yuxarıda göstərilən əsasnaməyə görə, Azərbaycanda daimi yaşayan şəxslərin yaşayış yeri, demoqrafik xüsusiyyətləri və şəxs haqqında digər informasiya dövlət reyestrində qeydiyyata alınır. Eyni zamanda, ƏdN həm Azərbaycan vətəndaşlarının, həm də xarici vətəndaşların Azərbaycan ərazisində doğulmuş uşaqlarının da qeydiyyatını aparır. Bununla yanaşı, nazirlik bütün Azərbaycan vətəndaşlarına, habelə ölkə ərazisində daimi yaşayan əcnəbilərə, qaçqın statusuna malik və vətəndaşlığı olmayan şəxslərə fərdi identifikasiya nömrəsinin verilməsini təmin edir. Şəxslər və onların fərdi identifikasiya nömrələri haqqında məlumatlar İAMAS-a daxil edilir. Beləliklə, ölkədə daimi yaşayan əhalinin tərkibini, onların miqrasiya miqyasını və istiqamətini müəyyən etmək üçün əsas məlumatlar dövlət reyestrində qeydiyyata alınır.

Azərbaycanda daimi yaşamaq hüququ və qaçqın statusu əldə etmiş əcnəbilər, habelə vətəndaşlığı olmayan şəxslər haqqında sənədləşdirilmiş informasiya dövlət reyestrinə daxil edilir. Bununla yanaşı, Əhalinin Dövlət Reyestri və Miqrasiya Xidmətinin informasiya sistemi arasında inteqrasiyası sayəsində sözügedən reyestrdə həmçinin müvəqqəti yaşamaq hüququ olan şəxslərin məlumatları açıqdır. Digər tərəfdən qeyd etmək lazımdı ki, müvəqqəti yaşamaq hüququ olan əcnəbilər barədə məlumatın reyestrə daxil olan məlumatlar kateqoriyasına aid edilmədiyi üçün hazırda bu şəxslərə fərdi identifikasiya nömrəsi ƏdN tərəfindən verilmir. Bundan əlavə, xaricdə daimi yaşayan Azərbaycan vətəndaşları Azərbaycandakı daimi yaşayış yeri üzrə qeydiyyatdan çıxmadıqda, Dövlət Reyestrində ölkədə yaşayanlar kimi göstərilir.

## 6. Diasporla İş üzrə Dövlət Komitəsi

Diasporla İş üzrə Dövlət Komitəsinin fəaliyyət istiqamətləri aşağıdakılardır:

- Diasporla iş sahəsində vahid dövlət siyasətinin formalaşdırılmasında iştirak etmək;
- Xaricdə yaşayan azərbaycanlıların əsas hüquq və azadlıqlarının təmin olunmasına və həyata keçirilməsinə və onların öz milli varlığını yaşatmasına və inkişaf etdirməsinə, ana dilini öyrənməsinə və tətbiqinin genişləndirilməsinə, habelə Azərbaycana dost münasibət bəsləyən digər xalqların diasporları ilə əlaqələr qurmasına və inkişaf etdirməsinə köməklik göstərmək;

- Xaricdə yaşayan azərbaycanlıların milli-mədəni muxtariyyətlər və ictimai birliklər yaratmaq hüququnun həyata keçirilməsinə yardım göstərmək;
- Xaricdə yaşayan azərbaycanlıların vəziyyəti haqqında informasiyanın toplanmasını, təhlilini, qiymətləndirilməsini və bu məqsədlə xüsusi məlumat bankının yaradılmasını təmin etmək.

Komitə xaricdə yaşayan azərbaycanlılardan ibarət konkret əhali qruplarının müəyyənləşdirilməsi ilə məşğul olmur. Barəsində məlumatların mövcud olduğu yalnız iki kateqoriya vardır: xaricdə vəfat etmiş Azərbaycan vətəndaşları və yardım üçün xaricdən müraciət etmiş Azərbaycan Respublikasının vətəndaşları.

## 7. Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi qaçqınlar və məcburi köçkünlər (MK) haqqında bu kimi fərdi məlumatların toplanmaısını həyata keçirir:

- Şəxsi iş nömrəsi, soyad, ad, ata adı, cins, doğum tarixi və yeri;
- MK vəsiqəsinin məlumatları (seriyası, növü və nömrəsi, verilmə və son istifadə tarixləri, status müddəti);
- Qeydiyyat ünvanı;
- MK statusunun təfərrüatları;
- MK-nın qohumları və ailəsi haqqında məlumat;
- (Müvəqqəti, cari) yerləşdirilmə məlumatları və MK-nın dövlətdən aldığı müavinətlər, müavinətlərin dayandırılmasının səbəbi.

Məlumatlar “Məcburi köçkünlərin vahid məlumat bazası” adlı xüsusi məlumat bazasında saxlanılır. Bu məlumat bazası bir neçə ayrı, yerli məlumat bazasından (informasiya toplusundan) ibarətdir. Yerli məlumat bazaları fərdi qeydlərdən, o cümlədən bütün toplanmış informasiyadan təşkil olunub və beləliklə, müvafiq işlərə baxılarkən MK-ların yuxarıda göstərilən bütün toplanmış məlumatlardan ibarət fərdi tarixçələrini izləmək mümkündür.

Bu məlumatlara çıxış əsasən Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi, onun struktur bölmələri və tabeliyində olan qurumlar üçün nəzərdə tutulub. Həmin məlumatlardan istifadə edən digər dövlət qurumları Azərİşıq ASC, Dövlət İmtahan Mərkəzi, Ədliyyə sistemi (elektron məhkəmələr), Təhsil Nazirliyi və ƏƏSMN-dir.

Bundan əlavə, MK-lar və statusu tanınmış qaçqınlar (digər) Azərbaycan vətəndaşları ilə və əcnəbilərlə birlikdə İAMAS-da qeydiyyata alınır və eyni şəkildə Azərbaycanın ümumi əhali sayına, xaricdən gəldiyi halda isə beynəlxalq miqrasiya mənşəli və ya beynəlxalq miqrasiya axınları ilə əlaqəli əhali qruplarına daxil edilir.

## 8. Xarici İşlər Nazirliyi

XİN müxtəlif müddətlərə vizaların verilməsinə məsuliyyət daşıyır və Azərbaycan vətəndaşlarının xaricdən qayıdışına kömək göstərmə məsələləri ilə məşğul olur. Azərbaycan Respublikasına qayıdış

şəhadətnaməsinin rəsmiləşdirilməsi qaydaları Nazirlər Kabinetinin 2007-ci il 13 iyul tarixli, 110 nömrəli Qərarı ilə təsdiq edilib.

Elektron viza üçün müraciətlər və vizaların (rədd cavabının) verilməsi barədə informasiya ASAN vasitəsilə işlənilir. Viza üçün müraciət edənlər haqqında məlumat XİN-in çıxışı olduğu İAMAS-a daxil edilir və təqdim edilmiş bütün informasiya yoxlanılır. Bu yoxlamalar əsasında ərizəçiyə viza və ya rədd cavabı verilir. Vizaların verilməsi qaydası vizanın növünə, səfərin məqsədinə dair və viza müraciəti üçün tələb olunan digər məlumatları nəzərdə tutan Nazirlər Kabinetinin 5 saylı Qərarı ilə tənzimlənir. Eyni zamanda viza məsələləri ilə bağlı nəzarətə cavabdeh olan orqanların məsələn, Dövlət Təhlükəsizliyi Xidmətinin müvafiq məlumatlara çıxışı da bu qərarla tənzimlənir. Vizalar barədə məlumatlar səfirliklər tərəfindən də İAMAS-da qeydiyyata alınır. Bununla yanaşı, viza almış, lakin Azərbaycana gəlməmiş əcnəbilər haqqında məlumatlar da İAMAS-da mövcuddur.

Bundan əlavə, XİN xaricdə yaşayan Azərbaycan vətəndaşlarının konsulluq qeydiyyatına alınmasını və lazım olduqda, Azərbaycana qayıdış şəhadətnaməsinin verilməsini həyata keçirir. Emiqrantlar haqqında informasiya Azərbaycan vətəndaşlarının özlərini xaricdəki müvafiq səfirliklərdə/konsulluqlarda bəyan etməsi yolu ilə toplanılır. Xaricdəki nümayəndəliklərdə "Xaricdə yaşayan Azərbaycan vətəndaşlarının qeydiyyatına dair reqlament"lə tənzimlənən bu cür qeydiyyat ölkə hüdudlarından kənarda yaşayan Azərbaycan vətəndaşlarına tövsiyə olunsa da, məcburi xarakter daşımır. Belə məlumatları toplamaq üçün xüsusi ərizə formalarından istifadə olunur. Qeydiyyatdan keçmiş şəxslər barədə fərdi qeydlər səfirliklər tərəfindən İAMAS-ın "Konsulluq" altsisteminə daxil edilir. Xaricdəki yaşayış yerini müvafiq səfirlikdə qeydiyyatdan keçirən vətəndaş fərdi məlumatlarının aidiyyəti dövlət qurumlarına ötürülməsi üçün də razılıq verir.

Xaricdə yaşayan Azərbaycan vətəndaşları pasportlarının müddətini uzatmaq və ya yeni pasport almaq üçün müvafiq səfirliklərə müraciət edə bilərlər. Müddəti bitmiş və yeni pasport haqqında bütün məlumatlar İAMAS-a daxil edilir. Səfirliklər müvafiq məlumatları DİN-ə ötürür, bu nazirlik isə mövcud prosedurlara uyğun olaraq pasportu rəsmiləşdirir və əlaqədar səfirliyə göndərir.

Dövlət proqramı çərçivəsində xaricdə təhsil alan Azərbaycan tələbələri barədə məlumatlar ilk növbədə Təhsil Nazirliyi tərəfindən toplanaraq, tələb olunduqda, XİN-ə göndərilir. Xaricdə təhsil haqqını şəxsi vəsaiti hesabına və ya digər qeyri-dövlət mənbələrindən ödəyən tələbə haqqında məlumat yalnız onun təhsil aldığı ölkədəki Azərbaycan Səfirliyində könüllü qeydiyyatdan keçməsi şərtilə əldə oluna bilər.

## 9. İdarələrarası Avtomatlaşdırılmış Məlumat Axtarış Sistemi

İAMAS bütün aidiyyəti dövlət qurumlarını, o cümlədən bütün sərhəd-buraxılış məntəqələrini, şəxsiyyət vəsiqəsi və pasport reyestrlərini vahid şəbəkədə birləşdirən Azərbaycan Respublikası Hökumətinin mərkəzi informasiya sistemidir. İAMAS bir-birini dəstəkləyən və ümumi informasiya resurslarından istifadə edən altsistemlərdən, eləcə də hər bir dövlət qurumunun müvafiq yerli seqmentlərindən ibarətdir. İAMAS Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 22 aprel tarixli, 744 nömrəli Fərmanı əsasında yaradılıb və qanunla nəzərdə tutulmuş vəzifələrini yerinə yetirərkən şəxslər haqqında inzibati məlumatları toplayan qurumlar tərəfindən birgə idarə olunur.

İAMAS miqrasiya prosesləri ilə məşğul olan bütün dövlət qurumlarını əlaqələndirir və dövlət sərhədi boyunca bu proseslərə effektiv nəzarət etmək imkanı yaradır. DSX, XİN, DİN və DMX kimi çoxsaylı dövlət qurumları tərəfindən sistemə daxil edilən informasiyada sərhədkeçmə, ölkədə yaşamaq icazələri, ünvanlar, məşğulluq, təhsil və s. barədə məlumatlar yer alır. ƏdN-in dövlət reyestrində olan məlumatların hamısı İAMAS-a daxil edilməsə də, şəxsiyyət vəsiqələri və pasportların verilməsi zamanı fərdi identifikasiya nömrəsi bu sistemə fərdi qeydlər səviyyəsində ümumi dəyişən kimi daxil edilir.

İAMAS və VMMS bir-birilə əlaqələndirilərək inteqrasiya olunur. İAMAS bütün Azərbaycan vətəndaşları haqqında müxtəlif informasiyanı özündə əks etdirdiyi halda, VMMS-də yalnız əcnəbilərin beynəlxalq yerdəyişmələri və Azərbaycanda yaşaması barədə məlumatlar yer alır. Belə ki, ölkədə müvəqqəti olma müddəti uzadılmış, müvəqqəti və ya daimi yaşamaq icazəsi əldə etmiş, yaxud qaçqın statusu verilmiş əcnəbilər haqqında məlumatlar VMMS-dən İAMAS-a, sərhədkeçmə barədə qeydlər isə İAMAS-dan VMMS-ə ötürülür. Faktiki olaraq, İAMAS eyni vaxtda VMMS-in yenilənmiş nüsxəsini ehtiva edir və beləliklə, dövlət qurumlarına miqrasiya ilə bağlı öhdəlik  və vəzifələrinin icrası üçün VMMS-dəki məlumatlardan istifadə imkanı verir. Bundan əlavə, İAMAS-da tətbiq edilən statistik altsistem dövlət qurumlarını miqrasiya idarəçiliyi sahəsinə aid olan statistik məlumatlara çıxış imkanı ilə təmin edir.

Müvafiq qanunvericiliyə uyğun olaraq, dövlət qurum və təşkilatları İAMAS-a çıxış imkanına malikdirlər. İnformasiya resurslarının formalaşdırılması, əlaqələndirilməsi, saxlanması və inkişafı, habelə informasiya təhlükəsizliyinin hüquqi, təşkilati və texnoloji əsaslarının müəyyən edilməsi hər bir istifadəçi ilə razılaşdırılır. Bununla əlaqədar olaraq, Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı ilə yaradılmış Əlaqələndirmə Şurası və məlumat bazasından istifadəni nəzarətdə saxlayan və əlaqələndirən mütəxəssislərdən ibarət işçi qrupu fəaliyyət göstərir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin “"Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sistemi daxilində dövlət orqanlarının informasiya resurslarından istifadəyə buraxılış dərəcəsi"nin təsdiq edilməsi barədə 2012-ci il 12 yanvar tarixli, 5 nömrəli Qərarında İAMAS-ın məlumat toplularına çıxış hüququ verilmiş dövlət qurumlarının siyahısı yer alır. Bu qurumlar İAMAS-da olan fərdi qeydləri işləyə, axtara və monitorinq edə bilər. DSK həmin qurumlar arasında qeyd olunmur. Beləliklə, milli statistikanın hazırlanması baxımından DSK İAMAS-ın məlumat toplularına birbaşa çıxış hüququna malik deyil və buna görə də müvafiq məlumatların toplanmasına cavabdeh olan digər dövlət qurumları tərəfindən tərtib və təqdim edilən statistikaya etibar etməlidir. Beynəlxalq miqrasiya statistikasına gəldikdə, ilk növbədə DMX həmin dövlət qurumu qismində çıxış edir

## 10. Dövlət Statistika Komitəsi

### 10.1 Məlumatların toplanması ilə məşğul olan DSK bölmələri

- Əhali statistikası şöbəsi;
- Əmək statistikası şöbəsi;
- Beynəlxalq əlaqələr şöbəsi.

## 10.2 DSK tərəfindən məlumat toplamanın hüquqi əsası

“Rəsmi statistika haqqında” Azərbaycan Respublikasının Qanununa[20] əsasən, müxtəlif məsələlərə, o cümlədən beynəlxalq miqrasiyaya aid statistikanın hazırlanması DSK-ya həvalə olunub. Bu qanun Statistika Şurasının tövsiyə etdiyi “Statistika işləri haqqında proqrama” uyğun olaraq, “dövlət statistika orqanları” tərəfindən rəsmi statistikanın hazırlanmasını, o cümlədən bu məqsədlə inzibati məlumatların istifadəsini tənzimləyir. Qanuna edilmiş dəyişikliyə əsasən DSK səlahiyyətli icra hakimiyyəti orqanı kimi müəyyən olunur.

Statistik vahidlərin dövlət reyestrinin yaradılması bu sahədə atılacaq mühüm addımlardan biridir. Statistikanın tərtibi üçün bütün dövlət qurumları və yerli hakimiyyət orqanları DSK-nı onların müvafiq yurisdiksiyaları çərçivəsində toplanılan, işlənilən və saxlanılan, xüsusən də reyestrlərində və digər məlumat fayllarında saxlanılan inzibati məlumatlara lazım olan dərəcədə çıxışla təmin etməlidir. Lakin, statistika orqanlarının fərdi məlumat qeydlərinə deyil, yalnız statistik hesabatlara çıxışı bu qanunla müəyyən edilir. Bu baxımdan yuxarıda qeyd olunan statistik reyestrin necə yaradılacağı aydın deyil. Statistik məlumatların məzmunu DSK ilə müvafiq qurumlar arasında ikitərəfli qaydada razılaşdırılır və qanuna uyğun olaraq, memorandumda təfərrüatlandırılır.

Qeyd etmək yerinə düşər ki, DMX məlumat bazalarının Elektron Hökumət İnformasiya Sistemi (“ASAN” körpü sistemi) vasitəsilə DSK-nın statistik məlumat bazasına inteqrasiyası haqqında razılaşma mövcuddur. Bu inteqrasiya 2022-ci ildən həyata keçirilir.

## 10.3 DSK tərəfindən statistikanın hazırlanması

Beynəlxalq miqrasiya sahəsində istehsal edilən statistik məlumatlar bunlardır:

- “Azərbaycan Respublikasında olan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər haqqında” rəsmi statistik hesabat forması No. 1 (Miqrasiya) və bu formanın doldurulmasına dair göstəriş.[21]
- “Azərbaycanda demoqrafik göstəricilər” Statistik məcmuə.[22]

DSK tərəfindən dərc edilən əhali sayı haqqında məlumatlar siyahıyaalmalarda toplanmış məlumatlara əsaslanır. Bununla belə, vətəndaşlıq və ya doğulduğu ölkələr üzrə bölgüsü aparılmış əhalinin illik sayına aid məlumatlar dərc edilmir.

Bu hesabat hazlrlanarkən, ən son siyahıyaalma məlumatları aşağıdakı əhali qrupları üzrə 2009-cu il siyahıyaalınmasından əldə olunub:

- Hal-hazırda ölkə ərazisində adi əsaslarla yaşayan xarici vətəndaşlar, məsələn, ölkədə yaşamaq icazəsi, iş icazəsi sahibləri, xarici tələbələr, uzunmüddətli vizası olan digər əcnəbilər;
- Xaricdə doğulmuş, hazırda isə ölkə ərazisində yaşayan vətəndaşlar.

[20] “Rəsmi statistika haqqında” Azərbaycan Respublikasının Qanunu, https://www.stat.gov.az/menu/3/Legislation/law_az.pdf/.
[21] Sənədə bu saytda baxmaq olar: https://www.azstat.org/onlinedoc/d03102111.rar/ (zip-fayl şəklində yüklənir).
[22] DSK “Demoqrafiya”, tarixsiz, https://www.stat.gov.az/source/demography/?lang=az/.

Digər kateqoriyalı şəxslər, məsələn, emiqrantların ailə üzvləri və ya geri qayıtmış vətəndaşlar siyahıyaalmaya daxil edilməyib.

Son siyahıyaalma 2019-cu il oktyabrın 1-də keçirilib. Beynəlxalq miqrasiya ilə bağlı aşağıdakı suallar həmin siyahıyaalmaya daxil edilib:

- Doğum yeri;
- Vətəndaşlıq;
- Müvafiq yaşayış massivində/binasında daimi yaşayış:
  - *Nə vaxtdan bu binada yaşayırsınız?*
  - *Əvvəllər hansı ölkədə yaşamısınız?*
  - Ölkə daxilində/Azərbaycana köçmənin əsas məqsədi.
- Yaşayış yerində müvəqqəti olmayan daimi sakinlərin hazırda olduğu yer və onların olmaması haqqında məlumat:
  - Yaşayış yerində olmama səbəbi;
  - Yaşayış yerində olmama müddəti (aylarla).

Bu hesabat hazırlanarkən 2019-cu il siyahıyaalmasının nəticələri hələ dərc edilməmişdi.

Əhali sayının illik yenilənməsi təbii artım və xalis beynəlxalq miqrasiya nəzərə alınmaqla siyahıyaalma məlumatları əsasında hesablanır. (2013-cü ildən etibarən) həm DİN-in Baş Pasport, Qeydiyyat və Miqrasiya İdarəsindən, həm də DMX-dan verilən məlumatlar ölkəyə gələn və ölkədən gedənlərin statistikası ilə əlaqəlidir. DİN Baş Pasport, Qeydiyyat və Miqrasiya İdarəsi yaşayış yerini dəyişməsi barədə məlumat verən həm ölkə vətəndaşlarını, həm də əcnəbiləri qeydiyyata alır, DMX məlumatlarında isə hər iki axın (gəlmə-getmə) üzrə statistikaya yalnız əcnəbilər daxil edilir.

Beynəlxalq miqrasiya statistikası üçün DSK "immiqrantları" daimi yaşamaq üçün ölkəyə gələn əcnəbilər kimi (Miqrasiya Məcəlləsinə əsasən ölkədə daimi yaşamaq üçün icazə yalnız iki il ərzində müvəqqəti yaşamaqdan sonra verilir), "emiqrantları" isə xaricdə daimi yaşamaq məqsədilə ölkəni tərk etmək üçün qeydiyyatdan çıxmış şəxslər kimi müəyyən edir.[23] Müvafiq olaraq, statistikaya əlaqədar ölkədə yalnız daimi yaşamaq üçün miqrasiya prosesləri daxildir. Bundan əlavə, əhatə olunan əhali qruplarının tərifləri baxımından immiqrasiya və emiqrasiya axınları arasında uyğunsuzluqlar mövcuddur.

DSK miqrasiya məsələlərinə dair illik statistik hesabatlar üçün hər hansı məlumatın fərdi qaydada işlənilməsini həyata keçirmir. Ölkəyə gələn və ölkədən gedənlərlə bağlı dərc edilən statistik məlumatlar DSX-dan gəlir. DMX-nın təqdim etdiyi statistik cədvəllər isə aşağıda göstərilən şəxslərin sayına aid statistik məlumatların toplanmasını və istifadəsini nəzərdə tutan *Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin* 2015-ci il 28 iyul tarixli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında olan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər haqqında" 1 nömrəli forma (Miqrasiya) adlı rəsmi sənədə uyğun tutuşdurulur:

- Azərbaycan Respublikasında olduğu yer üzrə qeydiyyata alınmış əcnəbilərin vətəndaşı olduğu və vətəndaşlığı olmayan şəxslərin daimi yaşadığı ölkə və cins bölgüsü üzrə sayına;
- Azərbaycan Respublikasında müvəqqəti yaşamaq üçün icazə almış əcnəbilərin vətəndaşı olduğu və vətəndaşlığı olmayan şəxslərin daimi yaşadığı ölkə və cins bölgüsü üzrə sayına;

[23] DSK "Azərbaycanda demoqrafik göstəricilər", 2016-cı il.

- Əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazə verilməsinə əsas olan hallar üzrə sayına;
- Azərbaycan Respublikasında müvəqqəti yaşamaq üçün icazə almış əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin qeydiyyata alındığı yer və cins bölgüsü üzrə sayına;
- Azərbaycan Respublikasında daimi yaşamaq üçün icazə almış əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin yaş və cins bölgüsü üzrə sayına;
- Azərbaycan Respublikasında daimi yaşamaq üçün icazə almış əcnəbilərin vətəndaşı olduğu və vətəndaşlığı olmayan şəxslərin daimi yaşadığı ölkə və cins bölgüsü üzrə sayına;
- Azərbaycan Respublikası ərazisində haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaq üçün təqvim ili ərzində verilmiş və müddəti uzadılmış iş icazələrinin əcnəbilərin vətəndaşı olduğu və vətəndaşlığı olmayan şəxslərin daimi yaşadığı ölkələr üzrə sayına;
- Azərbaycan Respublikası ərazisində haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaq üçün təqvim ili ərzində verilmiş və müddəti uzadılmış iş icazələrindən qüvvədə olanlara malik olan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin iqtisadi fəaliyyət növləri, yaş qrupları və cins bölgüsü üzrə sayına;
- Azərbaycan Respublikası ərazisində haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaq üçün təqvim ili ərzində verilmiş və müddəti uzadılmış iş icazələrindən qüvvədə olanlara malik olan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin iqtisadi fəaliyyət növləri, təhsil səviyyələri və cins bölgüsü üzrə sayına;
- Azərbaycan Respublikası ərazisində iş icazəsinin alınması tələb olunmayan hallar üzrə qeydə alınmış əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin cins bölgüsü üzrə sayına.

Miqrasiya statistikasının hazırlanması üçün metodologiya və metaməlumatlar yuxarıda qeyd olunan rəsmi sənəddə nəzərdə tutulur. Müvafiq statistik cədvəllər və dövri nəşrlər veb-saytda veriilr.[24] Azərbaycanın Statistik İnformasiya Xidməti yalnız ölkəyə gələn və ölkədən gedənlərin illik rəqəmlərini, həmçinin xalis miqrasiyanı (iki rəqəm arasındakı fərq kimi) təqdim edir. DSK-nın rəsmi internet-səhifəsində bununla bağlı bəzi əlavə metodoloji izahlar, o cümlədən 2013-cü ildən başlayaraq statistikanın DMX-nın məlumatlarına əsaslanması barədə informasiya verilir.

Metodoloji izahlarda barəsində informasiya verilən məsələlər aşağıda qeyd olunur.

**Azərbaycanla Müstəqil Dövlətlər Birliyi və digər dövlətlər arasında miqrasiya haqqında məlumatlar**
DİN-in Baş Pasport, Qeydiyyat və Miqrasiya İdarəsinin yerli şöbələri tərəfindən gəlmə/getmələrin qeydiyyatı ilə eyni vaxtda tərtib olunan statistik formalardakı məlumatların işlənilməsi yolu ilə əldə olunur. Məlumatlar DSK-ya “Azərbaycan Respublikasında əcnəbilər və vətəndaşlığı olmayan şəxslər haqqında” 1 nömrəli forma (Miqrasiya) rüblük (illik) rəsmi statistika hesabatı formasında verilir.

**İmmiqrantlar** Azərbaycana daimi yaşamaq üçün gələn şəxslərdir; **emiqrantlar** xaricdə daimi yaşamaq üçün Azərbaycandan gedən şəxslərdir.[25] Hər iki kateqoriyaya Miqrasiya Məcəlləsində təsbit olunduğu kimi Azərbaycanda yaşamaq və ya daimi yaşamaq üçün məskunlaşan ölkə vətəndaşları, xarici vətəndaşlar və vətəndaşlığı olmayan şəxslər daxildir.

---

[24] DSK “Demoqrafiya”, tarixsiz, https://stat.gov.az/source/demoqraphy/ap/?lang=en/.
[25] Yuxarıda qeyd olunan mənbə.

Burada "immiqrantlar" və "emiqrantlar" anlayışları müəyyən şərtlərdən asılıdır, çünki il ərzində eyni şəxs daimi yaşayış yerini bir neçə dəfə dəyişə bilər.

**Xalis miqrasiya** təqvim ilində gələnlərlə gedənlərin sayı arasındakı fərqdən ibarətdir. Xalis miqrasiya əmsalı xalis miqrasiya ilə cari daimi əhali sayının arasındakı nisbət kimi hesablanır. Təqvim ili üçün xalis miqrasiya əhalinin orta illik sayına nisbətdədir. Əmsallar hər 1000 nəfərə hesablanır.

DSK bütün məlumatları statistik cədvəllər şəklində DMX-dan alır. Burada qeyd olunan məsələlərlə bağlı hər hansı fərdi məlumat DSK üçün əlçatan deyil. "Azərbaycanda əcnəbilər və vətəndaşlığı olmayan şəxslər haqqında" 1 nömrəli hesabat formasında (Miqrasiya) göstərildiyi kimi, DMX-nın hazırladığı və DSK-ya təqdim etdiyi bəzi rəsmi statistika, məsələn, ölkədə müvəqqəti yaşamaq haqqında məlumatlar istifadə olunmur və paylanmır.

Bundan əlavə, Azərbaycan vətəndaşlarının xaricə daimi/uzunmüddətli yaşamaq üçün emiqrasiyasına dair məlumatlar 2000-ci ildən başlayaraq hər il DİN-in Baş Pasport, Qeydiyyat və Miqrasiya İdarəsinin yerli şöbələri tərəfindən tərtib olunan gəlmə/getmə statistik qeydiyyat vərəqəsinə qoşulan kəsmə talonlardan istifadə etməklə toplanır. DSK-dan verilən informasiyaya görə, bu gün üçün şəxslərin yaşayış yeri üzrə qeydiyyatına dair məlumatlar mövcuddur. Kəsmə talonlar əsasında toplanmış emiqrantlar haqqında məlumatlar DSK-ya DİN-in Baş Pasport, Qeydiyyat və Miqrasiya İdarəsi tərəfindən təqdim olunur. Bununla belə, DSK-nın dərc etdiyi beynəlxalq miqrantlara dair statistik məlumatlar rəsmi statistik hesabat əsasında DMX-dan əldə olunur və yalnız əcnəbilərin yerdəyişmələrini özündə əks etdirir.

Bu qiymətləndirmədə göstərildiyi kimi, milli statistikanı tərtib və ya dərc edərkən DSK-nın istifadə edə biləcəyi başqa heç bir miqrasiya məlumat mənbəyi yoxdur. Konsulluq reyestrlərini əsas götürərək, diasporlar haqqında heç bir məlumat dərc edilmir və bu hesabat hazırlanarkən məlumat toplama prosesinin təkmilləşdirilməsi ilə məşğul ola biləcək hökumətlərarası komissiya mövcud deyildi.

DMX məlumat bazalarının Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə DSK-nın statistik məlumat bazasına inteqrasiyası haqqında razılaşmaya əsasən, komitənin VMMS-ə çıxışına icazə verilib.

Buna baxmayaraq, hazırda miqrasiya məlumatlarını toplama sisteminin təkmilləşdirilməsi və ya dəyişdirilməsi üçün konkret qısa- və ya ortamüddətli planlar yoxdur. (Xərclərin artması və ola bilsin ki, daha irihəcmli sorğu anketi ilə bağlı keyfiyyət problemləri səbəbindən) işçi qüvvəsinin tədqiqatı vasitəsilə miqrasiya məlumatlarının toplanması məqsədəuyğun hesab edilmir.

## Nəticə və tövsiyələrin xülasəsi

Hesabatın bu yekun hissəsində tədqiqatın nəticələri ümumiləşdirilir və Azərbaycan Respublikasında beynəlxalq miqrasiya statistikasının BMT-nin tövsiyə etdiyi məlumat toplama metodologiyasına və Avropa statistikasının prinsiplərinə uyğun təkmilləşdirilməsi üçün nəzərə alınmalı olan mümkün dəyişikliklər təklif olunur. Digər dövlətlərin milli statistika qurumlarının təcrübəsi və beynəlxalq miqrasiya statistikasının təkmilləşdirilməsi üzrə BMT-nin son təşəbbüsləri aşağıdakı tövsiyələrdə nəzərə alınır.

## Rəsmi miqrasiya statistikası üzrə metodologiyanın təkmilləşdirilməsi

1. Avropa Statistikasının Normalar Məcəlləsində qeyd olunur ki, statistika orqanları müxtəlif məlumat mənbələrindən **məlumat toplamaq və informasiya əldə etmək üçün dəqiq hüquqi səlahiyyətlətə** malik olmalıdır. İdarələr, müəssisələr və ev təsərrüfatları məlumatlara çıxış imkanı yaratmağa və ya məlumat təqdim etməyə qanunla məcbur edilə bilər. Statistika Şurasının hazırladığı "Statistika işləri haqqında proqrama" uyğun olaraq, dövlət statistika orqanları tərəfindən rəsmi statistikanın hazırlanması, o cümlədən bu məqsədlə inzibati məlumatlardan istifadə Azərbaycan Respublikasının qanunu ilə tənzimlənir. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi statistika materiallarının istehsalına cavabdeh olan icra hakimiyyəti orqanı kimi müəyyən edilib.

   Rəsmi statistika hazırlama metodologiyasının seçilməsində DSK tərəfindən öz vəzifələrini və müstəqilliyini icra etmək üçün hüquqi əsasların gücləndirilməsi məqsədilə **milli qanunvericilikdə birmənalı şəkildə qeyd olunmalıdır ki, müxtəlif dövlət reyestrlərində və digər inzibati məlumat bazalarında fərdi qeydlər statistik və analitik məqsədlər üçün təqdim edilməlidir**, əgər müvafiq informasiyaya, texnoloji həllərə və məlumatların mühafizəsi tədbirlərinə əməl olunursa. DSK-nın "Statistika işləri haqqında proqramında" əvvəlcədən müəyyən edilərək ümumiləşdirilmiş inzibati statistikanın dərc edilməsinə deyil, fərdi qeydlərin işlənilməsinə üstünlük verilməlidir.

2. Dövlət Miqrasiya Xidməti əcnəbilərin yerdəyişməsi ilə bağlı müxtəlif aspektlərə dair statistik məlumatları mütəmadi olaraq hazırlayır. Bu məlumatlar VMMS-də aparılan qeydlərə əsaslanır və sistemin portalında ümumiləşdirilmiş formada digər istifadəçilərə təqdim edilir. Sistemin əsas məqsədi miqrasiya proseslərinin idarə olunmasında iştirak edən dövlət orqanlarının fəaliyyətləri üçün zəruri informasiyanın təminatından, vətəndaşlara və əcnəbilərə elektron xidmətlərin göstərilməsindən ibarətdir. DMX-nın təqdim etdiyi inzibati statistika ölkə üzrə xüsusi məqsədlər üçün, o cümlədən inzibati sistemin səmərəliliyinin müntəzəm monitorinqi və konkret siyasətlərin işlənib hazırlanması üçün lazımdır.

   Bununla belə, DMX-nın hazırladığı statistika yalnız VMMS-də qeydiyyata alınmış əcnəbiləri əhatə edir. Bundan əlavə, həmin **statistika qanun və inzibati qaydalarla müəyyən edilmiş anlayış və təriflərə əsaslanır və beynəlxalq tövsiyələrə uyğun gəlmir.** Əhali statistikası siyahıyaalmanın nəticələrinə əsaslandığı halda, əhali sayının illik yenilənməsi üçün istifadə edilən xalis miqrasiya statistikası qeydiyyata düşmə və qeydiyyatdan çıxma ilə bağlı inzibati məlumatlara əsaslandığından hesab olunur ki, sonuncuların sayı qeyri-dəqiqdir və tam şəkildə hesablanmır. Beynəlxalq müqayisəliliyi təmin etmək və ümumi əhali sayı, o cümlədən ölkəyə gələn və ölkədən gedən miqrasiya axınları haqqında etibarlı statistik məlumatlar təqdim etmək üçün rəsmi statistika beynəlxalq miqrantların hərtərəfli əhatə olunmasını və statistikanın digər sahələri, o cümlədən əhalinin siyahıyaalınması ilə uzlaşan tərifləri nəzərdə tutmalı, habelə beynəlxalq standartlara uyğunlaşdırılmalıdır.

   Odur ki, əhali sayının dəyişməsi kontekstində **beynəlxalq miqrasiyaya dair rəsmi statistikanın DSK tərəfindən beynəlxalq miqrasiya statistikası üzrə BMT tövsiyələrinə uyğun hazırlanması** daha münasib olardı. Əhali statistikası sahəsində ahəngləşdirilmiş təriflərin tətbiqi üçün dövlət informasiya sistemlərindən (VMMS, İAMAS) fərdi qeydlər müntəzəm olaraq DSK-ya ötürülməli və

bir neçə məlumat mənbəyindən eyni şəxsə aid qeydlərə keçid imkanı verən müvafiq identifikatoru özündə ehtiva etməlidir.

3. Rəsmi statistikanın hazırlanması məqsədilə inzibati məlumat mənbələrindən istifadəni asanlaşdırmaq və inzibati mənbələrdən əldə olunan nəticələrin keyfiyyətini təmin etmək üçün müxtəlif - həm statistik, həm də inzibati mənbələrdən məlumatları inteqrasiya edən statistik reyestrlərin yaradılması "Avropa Statistika Sisteminə Baxış 2020" sənədində nəzərdə tutulub.[26] Bu baxımdan, DSK qarşısında duran vəzifələrə Azərbaycan Respublikasında statistik reyestrin yaradılması da daxildir. Bununla əlaqədar olaraq, bütün dövlət və yerli inzibati orqanlar öz müvafiq yurisdiksiyaları çərçivəsində fərdi qaydada topladığı, emal etdiyi və saxladığı inzibati məlumatlara DSK-nın çıxışını təmin etməlidirlər.

   Hazırda **DSK-ya təqdim edilməli olan statistik məlumatlar**ın məzmunu **komitə ilə müvafiq qurumlar arasında ikitərəfli qaydada razılaşdırılır, lakin həmin məlumatlar ümumiləşdirilmiş formada olur.** DMX məlumat bazalarının İAMAS vasitəsilə DSK-nın Elektron Hökumət İnformasiya Sisteminin statistik məlumat bazasına inteqrasiyası haqqında razılaşma bu iki qurum arasında mövcuddur. Buna baxmayaraq, cari miqrasiya məlumatlarını toplama sisteminin təkmilləşdirilməsi və ya dəyişdirilməsi üçün hansısa konkret qısa, və ya ortamüddətli planlar da yoxdur.

   Demoqrafik və sosial-iqtisadi məsələlərə dair fərdi məlumatları özündə əks etdirən statistik reyestr müvafiq statistik sahələrə uyğun gələn statistikanın vaxtında hazırlanmasını asanlaşdıracaq. Odur ki, **DSK müxtəlif statistik məqsədlər, o cümlədən miqrasiya statistikası üçün sakinlərin fərdi uçotunu aparan statistik reyestrin hazırlanması üzrə tədbirlər planı ilə bağlı işlərə başlamalıdır.** İnzibati qaydada toplanmış fərdi məlumatların statistika məqsədləri və elmi tədqiqatlar üçün ötürülməsi və işlənilməsinə dair xüsusi prosedurlar hazırlanaraq razılaşdırılmalıdır.

### Təriflər

4. BMT miqrasiya statistikasında "adətən yaşadığı ölkə" anlayışını tətbiq etməyi və beynəlxalq miqrantları adətən yaşadığı ölkəni dəyişən şəxslər kimi müəyyən etməyi tövsiyə edir. "Adətən yaşadığı ölkə" anlayışı 12 aylıq sabit müddət meyarına əsaslanır. Belə bir anlayışın tətbiqi siyahıyaalma məlumatlarına əsaslanan əhali sayı və inzibati prosedurlar zamanı toplanan miqrasiya axınlarına aid rəqəmlər arasında uyğunluğu təmin etmək üçün vacibdir. Statistika orqanları bu anlayışı miqrasiya statistikasını tərtib etmək üçün istifadə olunan hər hansı məlumat mənbəyi ilə bağlı tətbiq etmək imkanına malik olmalıdır. Məsələn, Aİ-də üzv dövlətlər məlumatları öz inzibati təriflərinə uyğun toplaya bilər, lakin rəqəmlərin BMT-nin tövsiyə etdiyi təriflərə uyğun olması üçün etibarlı hesablamalar aparılır. Hazırda **miqrasiya statistikasında istifadə üçün BMT-nin tövsiyə etdiyi təriflərə uyğunlaşma tələbləri Azərbaycanda tam yerinə yetirilmir**.

   2009-cu ilin siyahıyaalınması zamanı toplanmış ümumi əhali məlumatları tövsiyə olunan "adətən yaşadığı yer" anlayışına, o cümlədən ölkədə olma və ya olmama ilə bağlı maksimum 12 aylıq müddət

[26] Avropa Komissiyası, "ASS-ə Baxış 2020", tarixsiz, ADMIN (İnzibati məlumat mənbələri), https://ec.europa.eu/eurostat/cros/content/ess-vision-2020-admin-administrative-data-sources_en/.

həddinə cavab verirdi. Bununla belə, illik əhali sayının yenilənməsi üçün istifadə edilən xalis miqrasiya, bu müddət meyarlarına əməl etməyən inzibati məlumat mənbələrində hesablanmış immiqrant və emiqrant sayına əsaslanır. Əhali sayının və miqrasiya axınlarının ölçülməsində müddət meyarlarından fərqli şəkildə istifadə əhalinin illik hesablanmasına təsir edir. Konkret olaraq, siyahıyaalma aparıldıqdan sonra ölkəni tərk edən və 12 aylıq müddətdən çox xaricdə yaşayan bir çox yerli emiqrant hələ də ölkə əhalisinin ümumi sayına daxildir. Əksinə, Azərbaycanda müvəqqəti yaşamaq üçün gəlmiş əcnəbi immiqrantlar, bu ölkədə hətta 12 aydan çox qalsalar belə, əhali sayına daxil edilmir.

Bu problem DSK tərəfindən müvafiq metodoloji izahda bu cür qeyd edilməklə etiraf olunur: ""Gələnlər" və "gedənlər" anlayışları müəyyən şərtlərlə miqrasiyanı xarakterizə edir, çünki eyni şəxs daimi yaşayış yerini il ərzində bir neçə dəfə dəyişə bilər."[27] Bu qeydlə DSK etiraf edir ki, Azərbaycanda immiqrantların və emiqrantların sayı BMT-nin tövsiyə etdiyi təriflərə tam uyğun deyil. Bununla belə, DSK miqrasiya məlumat bazalarının sahibi olan DMX-dən yalnız ümumiləşdirilmiş statistik məlumatlar alır və buna görə də tələb olunan təriflərin tətbiqi üçün məlumat seçimi ilə bağlı daha çox imkana malik olmalıdır. Bundan əlavə, toplanmış məlumatlar yalnız xarici miqrantları əhatə edir, lakin BMT tövsiyələrinə uyğunluq bütün beynəlxalq miqrantların (həm ölkə vətəndaşlarının, həm də əcnəbilərin) nəzərə alınmasını tələb edir. Buna görə də, **DSK BMT tövsiyələrinə uyğunluğu təmin etmək üçün öz metodologiyasına və məlumatların işlənilməsi prosedurlarına lazımi dəyişikliklər etməlidir** ki, bunun üçün də müvafiq qanunvericiliyə bəzi əlavələr tələb oluna bilər, məsələn, ölkədə yaşayan vətəndaşların 12 aydan çox müddət ərzində ölkədə olmaması halının qeydiyyata alınması məcburi ola blər.

## Əhatə və etibarlılıq

5. Beynəlxalq miqrasiya müxtəlif səbəblərdən və fərqli formalarda baş verdiyi üçün dünya əhalisi və iqtisadiyyatı sahələrindəki dəyişikliklərin mühüm hərəkətverici qüvvəsinə çevrilib. Birləşmiş Millətlər Təşkilatının Statistika Şöbəsi (BMTSŞ) miqrasiya statistikası üzrə mütəxəssislər və maraqlı tərəflər arasında intensiv fikir mübadilələrinə əsaslanaraq, miqrasiya statistikasının hazırlanması üçün yenidən baxılmış konseptual çərçivəni bu yaxınlarda təklif edib.[28] Bu çərçivə miqrasiya axınları və əhali sayı arasında əlaqəni gücləndirmək məqsədi daşıyır, belə ki, birincisi sonuncunun yenilənməsi üçün vacibdir. Ardıcıllıq nöqteyi-nəzərindən, **miqrasiyaya dair statistik məlumatlar toplayan və istifadə edən Azərbaycanın bütün təsisatları beynəlxalq səviyyədə qəbul edilmiş eyni təriflərə riayət etməlidir**.

   Bu, miqrasiya axınlarının statistikası və daimi əhalinin identifikasiyasına aiddir və hazırlanmış statistika həm ölkə vətəndaşlarını, həm də xarici vətəndaşları eyni təriflərə uyğun əhatə etməlidir, halbuki yenidən baxılmış konseptual çərçivə ölkədə olma müddətindən asılı olaraq beynəlxalq miqrasiya və müvəqqəti beynəlxalq mobillik arasında aydın fərq qoymağı təklif edir. Müvəqqəti mobillik "miqrasiya" anlayışının tərifində nəzərdə tutulan müddət meyarına görə insanların

[27] DSK "Demoqrafiya", tarixsiz, https://stat.gov.az/source/demography/ap/?lang=en/.
[28] BMTSŞ "Beynəlxalq miqrasiyaya dair konseptual çərçivələr, anlayışlar və təriflər haqqında yekun hesabat", BMT-nin Miqrasiya statistikası üzrə ekspert qrupu, 27 aprel 2021-ci il, https://unstats.un.org/unsd/demographic-social/migration-expert-group/task-forces/TF2-ConceptualFramework-Final.pdf/.

beynəlxalq miqrasiya sayıla bilməyən ölkələrarası yerdəyişmələrini özündə ehtiva edir. Ölkədə "miqrasiya" anlayışının tərifində göstərilmiş müəyyən müddətdən artıq olma ilə başa çatan hər hansı yerdəyişmə, əcnəbinin həmin ölkədə daimi və ya müvəqqəti olma hüququna malik olub-olmamasından asılı olmayaraq beynəlxalq miqrasiya, daha qısamüddəti yerdəyişmə isə müvəqqəti mobillik hesab edilməlidir. Əhali sayının dəyişməsi baxımından yalnız beynəlxalq miqrasiyanı nəzərə almaq lazımdır.

BMT tövsiyələrinə əməl etmək üçün **həm beynəlxalq miqrasiyaya, həm də müvəqqəti mobilliyə aid statistika toplanmalıdır**. Hazırda Azərbaycanda miqrasiya axınının statistikası yalnız daimi yaşamaq üçün gələn əcnəbiləri əhatə edir və illik əhali sayının hesablanmasında istifadə edilən müvafiq xalis miqrasiya siyahıyaalma məlumatlarına əsaslanan əhali sayı ilə tam uyğun gəlmir. Uyğunsuzluq əsasən vətəndaşların inzibati qaydada müvəqqəti sayılan emiqrasiya ilə bağlıdır, hətta əgər onlar ölkədən uzun müddətə gedirlərsə.

Azərbaycanda beynəlxalq miqrasiya statistikasının təkmilləşdirilməsi üzrə gələcək təşəbbüslər beynəlxalq yerdəyişmələrin geniş spektri haqqında məlumatları əldə etmə və BMT-nin tövsiyə etdiyi kimi beynəlxalq miqrantları aydın şəkildə ayırd etmə imkanlarını nəzərdə tutmalıdır. Böyük ehtimalla, digər inzibati məlumatlarla əlaqələndirilmiş sərhədkeçmə qeydlərindən qabaqcıl metodlarla istifadə etməklə miqrasiya məlumatlarının toplanması, idarə edilməsi və təhlili sahəsində təkmilləşdirmələrə nail olmaq mümkündür, bunun üçün isə metodologiya və İT həlləri sahəsində müvafiq potensialın inkişafı tələb oluna bilər.

6. Beynəlxalq miqrasiya həm ölkə vətəndaşlarına, həm də xarici vətəndaşlara aid olduğu halda, adətən dövlətlər xarici immiqrantlar və milli emiqrantlar haqqında məlumatlarla daha çox maraqlanırlar. Bir qayda olaraq, dövlətlər xarici immiqrantlar haqqında böyük həcmdə məlumat toplayırlar, çünki məhz bu şəxslər immiqrasiya nəzarətinin subyektləridir. Əksinə, bəzi ölkələr emiqrasiya axınlarının dəqiqliyini artırmaq üçün inzibati tədbirlər görsə də, ölkə vətəndaşlarının emiqrasiyasına dair məlumatların toplanması adətən çətin olur. Bununla belə, beynəlxalq miqrasiyanın əhaliyə və milli iqtisadiyyata təsirini hərtərəfli başa düşmək üçün həm vətəndaşlar, həm də əcnəbilər daxil olmaqla, bütün beynəlxalq miqrantlar inzibati qeydiyyat sisteminin statistikasında əks olunmalıdır.

   Hazırda DMX əcnəbilərin beynəlxalq yerdəyişmələri haqqında məlumatların toplanması üzrə əsas tərəf qismində çıxış edir və VMMS-in fəaliyyətini təmin edir. Xaricə (müvəqqəti və ya daimi) köçən Azərbaycan vətəndaşlarının miqrasiyası DMX tərəfindən VMMS-də qeydiyyata alınmır. VMMS-dən fərqli olaraq, başqa bir sistem ölkə vətəndaşların miqrasiyasını əhatə edir: DİN-in Baş Pasport Qeydiyyat və Miqrasiya İdarəsi daimi yaşayış yerini dəyişməsi barədə məlumat verən ölkə vətəndaşları və xarici vətəndaşlar haqqında məlumat toplayır. Bununla belə, daimi yaşayış yeri üzrə qeydiyyata düşmə və qeydiyyatdan çıxma haqqında məlumatlar əsasında vətəndaşların emiqrasiyası və geri qayıdış miqrasiyası barədə yetərli informasiya əldə etmək ehtimalı azdır. Eyni zamanda, Azərbaycan vətəndaşlarının emiqrasiyasına aid informasiya Azərbaycan Respublikasının səfirlikləri/konsulluqları tərəfindən də toplanır, lakin bu iş, yalnız əlaqədar vətəndaşların könüllü müraciəti əsasında aparılır. Bununla yanaşı, XİN Azərbaycan vətəndaşlarının xaricdən qayıtmasına dəstək göstərir. Bu cür müxtəlif məlumat toplama tədbirlərinə baxmayaraq, Azərbaycan vətəndaşlarının xaricə və xaricdən miqrasiya axınlarına dair statistik məlumatlar natamamdır.

Müvafiq olaraq, **bütün beynəlxalq miqrasiya axınlarını**, o cümlədən Azərbaycan vətəndaşlarının və xarici vətəndaşların həm daimi, həm də müvəqqəti miqrasiya proseslərini **əhatə etmək üçün inzibati qeydiyyat sistemində toplanan məlumatlar genişləndirilməlidir**. Təcili ehtiyacı nəzərə alaraq, bunu qısa müddət ərzində etmək lazımdır.

7. Keyfiyyətli əhali reyestrinə malik olan ölkələrdə əhalinin statistik rəqəmləri, o cümlədən miqrasiya məlumatları adətən bu reyestrdən alınır. Azərbaycan Respublikasında belə reyestr ƏdN tərəfindən idarə olunur. Azərbaycanda yaşayan şəxslərin yaşayış yeri, demoqrafik xüsusiyyətləri haqqında informasiya və digər fərdi məlumatlar əhalinin dövlət reyestrində qeyd olunur. Müvafiq olaraq, Azərbaycan Respublikasının daimi əhalisinin tərkibini və miqrasiyasını müəyyən etmək üçün əsas məlumatlar bu reyestrdə toplanır. Bundan əlavə, Azərbaycan vətəndaşlarına, ölkə ərazisində yaşayan əcnəbilərə fərdi identifikasiya nömrələri ƏdN tərəfindən verilir. Şəxslər və onların identifikasiya nömrələri haqqında məlumatlar İAMAS vasitəsilə vahid hala gətirildiyindən, miqrasiya ilə əlaqəli əhali və miqrasiya axınları haqqında statistik məlumatların ardıcıl şəkildə toplanması mümkündür.

   Bununla belə, əcnəbilər Azərbaycanda daimi yaşadığı və qaçqın statusu aldığı halda əhalinin dövlət reyestrində qeydiyyata alınır. Bundan əlavə, Azərbaycan vətəndaşları bu ölkəni tərk edib uzun illər xaricdə yaşasa da, yerli sakinlər kimi qeydə alınır. Beləliklə, "adətən" xaricdə yaşayan, lakin Azərbaycanda qeydiyyatda olan vətəndaşlarla bağlı məsələni əsaslı şəkildə həll etməklə **regional və yerli səviyyələrdə daimi əhali rəqəmlərini yeniləmək üçün Əhalinin Dövlət Reyestrindən istifadə olunmalıdır**.

8. Ölkədə yaşayan daimi əhali haqqında daha dəqiq informasiyanın toplanması, xüsusən də **milli emiqrantlar və onların xaricdən qayıdışı ilə bağlı məlumatların** təkmilləşdirilməsi yollarını müəyyən etmək üçün sistematik qiymətləndirmə aparılmalıdır. DSX, DMX, XİN, DİN və ƏdN arasında daha sıx əməkdaşlıq sayəsində təkmilləşdirmələrə nail olmaq mümkündür. Bu cür təkmilləşdirmələr ölkə vətəndaşlarının dövlət hakimiyyət orqanlarına və ya xaricdəki müvafiq konsulluğa və ya pasport qeydiyyatı idarəsinə xaricdə yaşayış yerini dəyişməsi barədə məlumat verməsi üçün marağını artırmaq məqsədilə daha güclü stimulların təmin edilməsini nəzərdə tuta bilər.

   Azərbaycandan gedən və Azərbaycana gələn vətəndaşların yaşayış yeri ilə bağlı bütün dəyişikliklərinin tam şəkildə qeydiyyata alınmasına nail olmaq çətin görünsə də, müxtəlif inzibati mənbələrdən, məsələn, əhalinin dövlət reyestrindən, sərhədkeçmə qeydlərinə aid və konsulluq reyestrlərindən məlumatlarının birləşdirilməsi metodologiyasının işlənib hazırlanmasına şərait yaradılmalıdır. Əhalinin dövlət reyestrində qeydiyyata alınmış məlumatlarla müqayisə etdikdə, bu, faktiki olaraq ölkə ərazisində yaşamayan yerli vətəndaşları müəyyən etmək imkanı verə bilər. Beləliklə, **daimi əhali haqqında məlumat dəqiqliyinin artırılması** və faydalı təkmilləşdirmələrə nail olma **yollarını müəyyən etmək üçün sistematik qiymətləndirmələr aparılmalıdır**. Bu cür təkmilləşdirmələrin ilkin şərti müvafiq dövlət qurumları arasında daha sıx əməkdaşlıqdan ibarətdir.

## Paylama

9. Əhalinin və mənzil fondunun siyahıyaalınması miqrasiya məlumatlarının toplanması, xüsusən də miqrasiya keçmişi olan əhali qruplarının təsviri üçün çox faydalı və geniş istifadə olunan mənbədir. Ən əsası, əhali sayına aid illik hesablamaların əsasını yeniləmək üçün siyahıyaalma məlumatları tələb olunur. **Azərbaycanda sonuncu siyahıyaalma 2019-cu ildə keçirilib, lakin bu tədqiqat aparıldığı vaxt siyahıyaalmanın nəticələri**, hətta siyahıyaalma əsasında ümumi əhali sayına dair ilkin rəqəmlər belə hələ **mövcud deyildi**.

   Siyahıyaalma ilindən başlayaraq müvafiq illik əhali rəqəmlərini yeniləmək üçün **daimi əhalinin sayına aid siyahıyaalma məlumatları mümkün qədər tez təqdim edilməlidir.** Xüsusilə, vətəndaşlıq və ya doğulduğu ölkə üzrə siyahıyaalma məlumatları dərc edilərək yayılmalıdır. Siyahıyaalma əhali sayının hesablanması baxımından ən vacib mənbədir və məlumatların toplanması ilə nəticələrin yayılması arasındakı müddəti minimuma endirmək üçün səy göstərmək lazımdır. Bu, miqrasiya statistikası ilə bağlı hallarda xüsusi önəm kəsb edir, çünki axınlar adətən xarici səbəblər nəticəsində çox sürətlə dəyişə bilər.

10. Eyni zamanda, müxtəlif maraqlı tərəflərin, məsələn, geniş ictimaiyyətin, medianın və elmi tədqiqatçıların, yerli və beynəlxalq siyasət hazırlayanların ehtiyaclarını nəzərə alaraq, statistik məlumatların yayılması və mübadiləsi üsullarının təkmilləşdirilməsinə ehtiyac var.

    Miqrasiya proseslərini daha yaxşı başa düşmək üçün **mövcud məlumatların daha ətraflı təhlili aparılmalıdır və müasir məlumat təhlili metodlarından istifadə edilməlidir.** Mövcud məlumatların daha təkmil istifadəsini təmin etmək məqsədilə DSK və elmi tədqiqatçılar tərəfindən inzibati, statistik və daha geniş analitik məqsədlərlə toplanan mikroməlumatların təhlükəsiz ötürülməsi və işlənilməsi üçün qaydalar və həllər yaradılmalıdır.

11. DSX, DMX, DİN, XİN və ƏdN miqrasiya statistikası sahəsində əsas maraqlı tərəflər olduğu halda, miqrasiyanın müəyyən sahələri ilə məşğul olan digər qurumlar da mövcuddur, lakin onların müvafiq statistik məlumatlarla bağlı vəzifələri hələ də qeyri-müəyyən olaraq qalır. Məsələn, mövcud məlumat bazalarında toplanmış məlumatların növü (dəyişənləri, formaları) və Diasporla İş üzrə Dövlət Komitəsi ilə DMX-nın VMMS-i arasında məlumat mübadiləsi barədə hər hansı informasiya bu tədqiqat üçün əlçatan deyildi.

    Buna görə də, miqrasiya ilə bağlı hər hansı statistikanın hazırlandığı və ya istifadə olunduğu bütün sahələri, müvafiq məlumat bazaları və məlumat mübadiləsi mühitlərini, maraqlı tərəfləri və iştirakçıları, o cümlədən onların məsuliyyət sahələri və qarşılıqlı əlaqələrini əhatə edən **miqrasiya məlumatlarını idarəetmə sisteminin hərtərəfli struktur çərçivəsi hazırlanmalıdır**. Belə ki, miqrasiya məlumatlarını idarəetmə sisteminin sənədləşdirilməsi bütövlükdə məlumatları idarəetmə sistemindəki boşluqların və zəruri dəyişikliklərin müəyyənləşdirilməsinə kömək edə bilər.